**AZƏRBAYCAN RESPUBLIKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SARA NÜŞRAVAN qızı ƏLİYEVA**

# ALMAN DİLİ DƏRSLƏRİNDƏ İNTERNET TƏDRİS MATERİALLARINDAN İSTİFADƏ

İxtisaslaşma: HSM-060103 – Alman dilinin tədrisi metodikası və metodologiyası

Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş

## D İ S S E R T A S İ Y A

Elmi rəhbər: ___________________

*Ped.f.d., b/m. Qahirə Vaqif qızı Axundova*

**BAKI – 2022**

# MÜNDƏRİCAT

**GİRİŞ……………………………………………………………………………………………….3**

**I FƏSİL. ALMAN DİLİ DƏRSLƏRİNDƏ İNTERNET TƏDRİS MATERİALLARINDAN İSTİFADƏ OLUNMASININ NƏZƏRİ ƏSASLARI……………………………………………………………………………………10**

*1.1. Alman dili dərslərində internet tədris materiallarından istifadə olunmasının linqvodidaktik əsasları*……………………………………………………………………………10

*1.2. Alman dili dərslərində internet tədris materiallarından istifadə olunmasının metodiki əsasları*…………………………………………………………………………………..22

**II FƏSİL. ALMAN DİLİ DƏRSLƏRİNDƏ İNTERNET TƏDRİS MATERİALLARINDAN İSTİFADƏ OLUNMASININ EKSPERİMENTAL TƏHLİLİ……………………………………………………………………………………35**

*2.1.Müəyyənləşdirici eksperiment*……………………………………………………………………35

*2.2. İnternet tədris materialların əsasında eksperimental tədris*……………………………43

*2.3. Yoxlayıcı eksperiment*…………………………………………………………………………50

**NƏTİCƏ………………………………………………………………………………………………63**

**ƏDƏBİYYAT SİYAHISI……………………………………………………………………………66**

# GİRİŞ

***Mövzunun aktuallığı.*** İnternet müasir dövrümüzün, həyatımızın bir hissəsinə çevrilib. Ondan tədrisdə istifadə edib, etməmək haqqında mübahisə və mülahizələr artıq öz təsirini itirmişdir. İndi əsas sual budur: "Təhsil prosesində internet resurslarından daha yaxşı necə istifadə etmək olar?". Uğurlu öyrənmənin əsas təminatçısı olduğu sürətlə dəyişən bir həyatda yaşayırıq. Müəllimin vəzifəsi bu gün, şagirdlərinin mübadilə proqramlarında və beynəlxalq yarışlarda iştirakını, müxtəlif təlim formaları ilə onların öyrənmə yollarını göstərməyi təmin etməkdir. Qeyd edək ki, xarici dilləri bu gün ən qısa müddətdə öyrənmənin yolu kompüter proqramlarından və internetin imkanlarından istifadədir.

Hər bir şagird dilə maraqlı olduqda öyrənməyi sevir. Şagirdlərdə xarici dillərə maraq yaratmaq üçün isə dərslik və dərs vəsaitlərinin düzgün işlənilməsi, hazırlanması tələb olunur. Xarici dillərin öyrənilməsində bir çox aparıcı nəşriyyatlar tərəfindən nəşr olunan ən yaxşı kitablar belə, iki-üç ildən sonra köhnəlir, öz təsirini itirir. Cəmiyyətdə hər hansı bir xarici dilin daim inkişaf etməsi üçün mobil bir dərslik bütün sosial və dil proseslərini nəzərə ala bilir. Bu gün internet ən müasir mənbələrlə, "canlı dil" ilə orijinal materialları öyrənməyə imkan verir.

Bir çox təhsil saytları dərhal özünü yoxlama qabiliyyətinə malik çoxsəviyyəli testlər göndərir (şagirdlər qeyd edirlər ki, onlardan sonra qrammatik anlayışları kəskin şəkildə yaxşılaşır), həmçinin tez-tez səhv təhlil ilə diaqnostik qiymətləndirmə təklif edirlər. Bu cür testlər şagirdin dilin mənimsənməsində bacarıqlarının formalaşmasına kömək edir. Şagird müstəqil iş bacarıqları qazanır, qabiliyyətlərinə daha çox inanır, səhv etmək qorxusu ortadan qalxır (nəticələri özü və müəllim bilir). İbtidai və orta məktəb şagirdləri dil oyunlarından zövq alır, yuxarı sinif şagirdləri alman dilində söhbətə qatılır, foruma mesaj göndərir, yorğunluqdan və ya həddən artıq yüklənmədən şikayət etmədən dostlar tapır. Səbəb sadədir - müstəqil, fərdi iş imkanı maraqlıdır, sinifdə öyrənməkdən daha asandır. Təəssüf ki, bu cür işlər əsasən dərs saatlarından sonra həyata keçirilə bilər, çünki dərs vaxtı məhduddur. Buna görə də, şagirdlərə internet resurslarından ən səmərəli şəkildə istifadə etməyi öyrətmək,

distant təhsil almaq, internetdə sertifikatlaşdırılmış dil imtahanlarından keçmək imkanları haqqında məlumat vermək lazımdır. Tədqiqatın aktuallığı, bu gün informasiya texnologiyalarının hazırda ali təhsilin elmi fəaliyyətinin aparıcı aspektlərindən birinə çevrilməsidir. Bu səbəbdən, alman dili dərslərində internet tədris materiallarından istifadə olunmasının əhəmiyyəti:

- alman dilinin xarici dil kimi tədrisinin keyfiyyətinə və formalarına yeni tələblərin olması;
- internetə əsaslanan yeni distant təhsil sistemlərinin inkişaf etdirilməsinə ehtiyac;
- alman dilində internet tədris materiallarının seçilməsi.

İnternet resurslarından istifadə ilə tədris prosesində öyrənmə fərdiləşdirməyə kömək edir və şagirdlərin qabiliyyətlərini, öyrənmə səviyyələrini və meyllərini nəzərə alaraq dilin mənimsənilməsini təşkil etməyə imkan verir. Dünya miqyasında bir şəbəkənin təmin etdiyi əsl dil mühitində ünsiyyət quran şagird öyrənilən dilin əsl əhəmiyyətini dərk etməyə başlayır. Həqiqi ünsiyyətin artıq mümkün olduğu anlaşılır. İnternet tədris materialları müxtəlif dil və nitq bacarıqlarını müstəqil şəkildə öyrətmək üçün geniş imkanlar yaradır. Bundan əlavə, kompüterlə dili öyrənmək şagirdə, qarşı tərəfdən kobud münasibətin yaranmaması, mənfi şərhlərlə öyrənmə prosesinin müşayiət edilməməsi şagirdin özünü rahat hiss etməsinə imkan verir. Burada hər zaman şagird mümkün bir iş səviyyəsini seçə bilər və tədricən fərdi cədvəlinə uyğun olaraq sadədən daha mürəkkəb tapşırıqları yerinə yetirər.

Xatırladaq ki, xarici dil öyrətməyin əsas vəzifəsi bu dildə ünsiyyət qurmağı öyrətməkdir. Şagirdin kompüter arxasında oturaraq danışmağı öyrənməsi ehtimalı azdır. Ancaq şəbəkədən alınan məlumatlar, orijinal bir saytda danışmaq üçün maraqlı mövzular şagirdlərin dilin öyrənilməsinə olan motivasiyasını yüksəldir. Deməli, araşdırdığımız tədqiqatda dərslərin internet tədris materialları ilə təşkili və alman dilinin öyrənilməsində istifadə olunması bu gün müəllimlərimizi düşündürən ən aktual mövzulardan biridir.

***Problemin öyrənilmə dərəcəsi.*** Bu araşdırmanın obyekti, internetin müxtəlif sahələri və tədris materialları, metodoloji, psixoloji və linqvistik ədəbiyyat məlumatları, istifadəçi ilə dialoq qurmaq üçün müxtəlif kompüter proqramlarıdır.

Tədqiqat mövzusu olaraq aşağıdakılar fərqləndirilir:

a) müxtəlif növ informasiya texnologiyalarını dilin tədrisində tətbiq edən, dili öyrətmək üçün bir təlim vasitəsi olaraq kompüterin xüsusiyyətləri;
b) psixoloji, pedaqoji və linqvistik tələblər, linqodidaktik xarakterli kompüter sistemlərinin təməlində duran prinsiplər;
c) internetə əsaslanan tədris materiallarının seçilməsi, qiymətləndirilməsi və istifadəsi prinsipləri.

***Tədqiqatın məqsəd və vəzifələri.*** Tədqiqatın əsas məqsədi, məlumatların istifadəsinin əsasını təşkil edən internet sisteminin nəzəri əsaslandırılması və elmi-metodiki inkişafıdır. Dilin öyrənilməsində internetin rolu müasir dövrün aktual mövzusudur. Bu işin xüsusi məqsədləri aşağıdakı kimi tərtib edilmişdir: kompüterlə təlim xüsusiyyətlərinin, quruluşunun, tədris funksiyalarının təsviri, internetdə mövcud olan məlumatların sistemləşdirilməsi və formalaşdırılması, məlumatlardan tədris materiallarında istifadə modeli, oxumağı öyrətmək üçün dərslərdə internetin istifadəsi.

Bu məqsədlər aşağıdakı xüsusi tədqiqat vəzifələrini təyin etmək və həll etmək ehtiyacını müəyyən edir:

- alman dilinin tədrisində kompüterdən istifadə təcrübəsini ümumiləşdirməklə öyrənmək və anlamaq;
- dilin tədrisində internet məlumatlarından istifadənin elmi və metodiki prinsiplərini formalaşdırmaq;
- alman dilinin öyrənilməsində internet tədris materiallarından istifadə yollarını müəyyənləşdirmək.

Aşağıdakı ***müddəalar*** müdafiəyə təqdim olunur:

- müasir texnologiyalar, internetdə mövcud olan məlumatları xarici dillərin tədrisi prosesində hazırlamağa və onlardan tədris materialları kimi səmərəli istifadə etməyə imkan verir;

- internetdən istifadənin fərqli modelləri motivasiyanı və nəticədə öyrənmənin effektivliyini əhəmiyyətli dərəcədə artırır;
- xarici dillərin praktiki öyrənilməsində internet resurslarının yaradılması və istifadəsi dissertasiyada təsvir olunan prinsiplərə əsaslanır.

***Dissertasiyanın elmi və praktik əhəmiyyəti.*** İşin ***nəzəri*** əhəmiyyəti bundan ibarətdir:

- kompüter texnologiyalarının köməyi ilə tədris prosesinin keyfiyyətinin artırılmasının əsas istiqamətlərini müəyyənləşdirməklə xarici dil dərslərində internet materiallarının qiymətləndirilməsi üçün tələbləri formalaşdırır.

İşin ***praktik*** əhəmiyyəti:

- mətn texnologiyası əsasında qurulmuş yeni tipli tədris materiallarının parametrləri müəyyən edilmişdir;
- dilin tədrisində internet resurslarından istifadə üçün xüsusi metodoloji üsulların təsviri verilmişdir;
- kompüterdən istifadə edərək xarici dil dərsinin təşkili və aparılması ilə bağlı müəllimlərə metodiki tövsiyələr hazırlanmışdır;
- auditoriyada xarici dilin tədrisində istifadə edilə bilən tədris materialları seçilmişdir.

İşdə aşağıdakı tədqiqat ***metodlarından*** istifadə edilmişdir:

- dilin psixoloji, metodoloji məlumatlarının təhlili daxil olmaqla analitik və təsviri, nəticələrin sonradan ümumiləşdirilməsi və təsviri;
- kompüterdən istifadə edərək nitq ünsiyyətinin öyrədilməsi prosesinin və təcrübi öyrənmə şəklində pedaqoji təcrübələrin müşahidəsi;
- kompüterdən istifadə edərək alman dilinin xarici dil kimi tədrisi təcrübəsinin təhlili və ümumiləşdirilməsi;
- mövcud kompüter proqramlarında alman dilində olan materialların qiymətləndirilməsi;
- tədqiqat materialı olaraq aşağıdakı mənbələrdən istifadə edildi: kompüter proqramlarından istifadə edərək dərs zamanı alman dilli xalqların ünsiyyət-nitq fəaliyyətinin müşahidəsi;

- xarici dillərin tədrisində kompüterdən istifadə üsullarının və nəticələrinin təsviri.

***Tədqiqatın elmi yeniliyi.*** Alman dilində internet materiallarından istifadə kommunikativ təlim prosesinin əsas hissəsi olmaqla şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnməsində mövcud problemlərin həll edilməsini, tədrisin uyğun resurslarla təmin olunmasını zəruri hesab edir. Ölkəmizin digər dövlətlərə inteqrasiyası dil dərslərinin innovativ metodlarla təşkilində internet materiallarından istifadəni məqsədəuyğun bilir:

1. Alman dilində internetdəki müxtəlif tədris materiallarının linqvodidaktik təhlili aparılmışdır.
2. Tədris prosesində internetdəki mətn məlumatlarının tipoloji xüsusiyyətlərindən istifadə üçün materiallar müəyyən edilmişdir.
3. İnternet məlumatlarına əsaslanaraq alman dilinin yeni dərs modelləri ilə keçirilməsi təklif olunur.

***Tədqiqat işinin nəzəri metodoloji bazası.*** Şagirdlərə alman dilinin öyrədilməsində internetdən səmərəli istifadənin elmi və metodoloji probleminə həsr olunmuş dissertasiyanın tədqiqatının nəzəri əsasları:

- alman dilinin xarici dil kimi tədrisi, xarici dillərə yiyələnməyin müasir anlayışları və nəzəriyyələri sahəsindəki fundamental əsərlər (A.R.Arutyunov, İ.L.Bim, G.G. Gorodilova, İ.A.Zimnya, V.G.Kostomarova, A.A.Leontiyev, O.D.Mitrofanova, E.İ.Passov, S.F.Şatilov və başqaları);
- təlimin didaktik nəzəriyyələri (Y.K.Babanskiy, A.L.Berdiçevskiy və s. əsərləri);
- psixologiya sahəsində iş, ilk növbədə, insanla kompüter arasındakı əlaqənin psixoloji aspektlərinə həsr olunmuş tədqiqatlar (N.İ.Gorelov, T.K.Kornilova, E.İ.Maşbits, O.K.Tikomirov və s. əsərləri);
- kompüter sistemlərindən istifadə edərək müxtəlif prosesləri, metodları, tədris metodlarını araşdıran informatika və pedaqogikadan məlumatlar

(E.G.Azimov, B.S.Gerşunskiy, İ.İ.Dmitrieva, C.B.Nazarov, E.S.Polat və başqaları).

***İşin aprobasiyası*** ADU-nun Filologiya fakültəsi nəzdində Alman dilinin fonetikası və qrammatikası kafedrasında yerinə yetirilmişdir. Tədqiqatla bağlı bir məqalə dərc edilib.

***Dissertasiyanın stukturu***. Dissertasiya giriş, iki fəsil, beş yarımfəsil, nəticə və istifadə olunan ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya mənbə olaraq 90 sayda ədəbiyyatı və internet resurslarını əhatə edir.

I Fəsil. Alman dili dərslərində internet tədris materiallarından istifadə olunmasının nəzəri əsasları adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir.

1.1. Alman dili dərslərində internet tədris materiallarından istifadə olunmasının linqvodidaktik əsasları. Hazırki dövrdə xarici dillərin tədrisində təlimin mobilləşməsinin əsas səbəbi yeni informasiya texnologiyalarının orta və ali təhsilin elmi fəaliyyətinin aparıcı aspektlərindən birinə çevrilməsidir. Bu yarımfəsildə internet tədris materiallarının linqvodidaktik əsasları tədqiqat zamanı nəzəri ədəbiyyatlarda öz əksini tapıb.

1.2. Alman dili dərslərində internet tədris materiallarından istifadə olunmasının metodiki əsasları. Dilin fəal mənimsənməsində yeni təlim texnologiyalarının xarici dillərin tədrisinə tətbiqi yolları bu gün metodikada ən aktual sahələrdən biridir. Alman dili dərslərində internet tədris materiallarından istifadə olunması problemləri araşdırdığımız elmi-metodiki ədəbiyyatlarda əsaslı olaraq öz həllini tapır.

Dissertasiyanın 2-ci fəsli üç yarımfəsili əhatə edir.

II Fəsil. Alman dili dərslərində internet tədris materiallarından istifadə olunmasının eksperimental təhlili. Tədqiqat müddətində araşdırılan mövzunun eksperiment tədrisinin təhlili müəyyən nəticələrin əldə edilməsinə səbəb oldu.

2.1.Müəyyənləşdirici eksperiment. Bu mərhələnin əsas məqsədi orta məktəb şagirdlərinin alman dilində bilik, bacarıq və vərdişlərin internet tədris materialları ilə mənimsənməsini və nitqdə onun formalaşmasını müəyyən etməkdən ibarət olmuşdur.

2.2. İnternet tədris materiallarının əsasında eksperimental tədris mərhələsinin əsas məqsədi məktəb şagirdlərinə bilik və bacarıqları yeni təlim texnologiyaları ilə aşılamaq və bu vərdişlərin inkişaf etdirilməsi məqsədilə şagirdlərə internet resurslarından seçilmiş müxtəlif tapşırıqlar üzərində oyunlarla işləməyə yönəltməkdir.

2.3. Yoxlayıcı eksperiment. Bu mərhələdə əldə edilən nəticələrə əsasən təlim müddətində qarşıya çıxan problemləri, çətinlikləri, onların səbəbləri və həlli yollarını araşdırmaq üçün müxtəlif internet əsaslı təlim texnologiyalarından və seçilmiş tapşırıqlardan istifadə edərək şagirdlərin kommunikativ vərdişlərə nə dərəcədə yiyələndiyini yoxlamaqdan ibarətdir.

# I FƏSİL

# ALMAN DİLİ DƏRSLƏRİNDƏ İNTERNET TƏDRİS MATERİALLARINDAN İSTİFADƏ OLUNMASININ NƏZƏRİ ƏSASLARI

## *1.1. Alman dili dərslərində internet tədris materiallarından istifadə olunmasının linqvodidaktik əsasları*

Müasir cəmiyyətdə bu gün alman dilinin öyrənilməsi getdikcə mühüm rol oynayır. Dünya mədəniyyəti ilə yaxından tanış olmaq üçün multimedia tədris metodlarından - internet resurslarından istifadə etmək və eləcə də informasiya kommunikasiya texnologiyaları (İKT) ilə işləmək zəruri hesab edilir. Buna görə də, alman dilinin tədrisində kompüter informasiya texnologiyalarının tətbiqini təkmilləşdirmək çox vacibdir. Müasir informasiya texnologiyaları təhsil prosesinin bir hissəsinə çevrilir. Müasir yanaşmaları tələb edən tədris alman dili dərslərinin uğurlu həllini aktual və innovativ kompüter texnologiyası ilə əsaslandırır. Orta məktəb həyat üçün lazımi bilikləri dərsliklərlə təmin edə bilmir və şagirdlərin bu səbəbdən əsas istinad nöqtələri müstəqil inkişaf etmir. Orta məktəb şagirdlərinin idrak bacarıq və qabiliyyətlərini inkişaf etdirmək imkanı və onlara lazım olan əsas vərdişləri aşılamaq vəzifəsi internet tədris materiallarının linqvodidaktik əsaslarının araşdırılmasını tələb edir.

Müasir təhsilin modernləşdirilməsi fəal təlimin təşkilində alman dilinin öyrənilməsini innovativ proseslərlə əlaqələndirir. Məktəb təhsil sahəsinin inkişaf istiqaməti şagirdin maraqlarına, fərqli yanaşmanın həyata keçirilməsi ehtiyaclarına yönəlib. Son illər məktəbdə müasir informasiya texnologiyalarından istifadə yalnız müasir texniki üsullarla deyil, həm də müasir formalar və tədris üsulları, eləcə də prosesin özünə müasir yanaşma ilə öyrənilmədir. Alman dilinin tədrisində şagirdlərin kommunikativ mədəniyyətinin formalaşdırılması dilin mənimsənməsində aparıcı rol oynayır. Müəllim şagirdi üçün praktiki dil əldə etmək şəraitini yaratmağa çalışmalı, öyrənmə yollarını seçməsinə imkan verəcək şagirdin fəallığını, yaradıcılığını göstərməlidir. Müəllimin vəzifəsi dilin öyrənilməsi prosesində şagirdin idrak qabiliyyətlərini aktivləşdirmək üçün tədrisdə müasir pedaqoji texnologiyalardan:

əməkdaşlıq elementlərindən, layihə metodlarından, müasir informasiya texnologiyalarından istifadə etməkdir. İnternet resursları ilə öyrənmə səviyyəsini nəzərə alaraq təlimin tətbiqi şagirdin dili kommunikativ mənimsəməsinə kömək edə bilən yanaşma, fərdiləşdirmə və diferensiallaşma imkanlarını təmin edir. Kompüter təlim proqramları ilə iş formalarından alman dili dərslərinə daxildir: lüğətin, tələffüzün, dialoji və monoloji nitqin öyrənilməsi, yazmağı, qrammatik bacarıqları məşq etmək. İnternet resurslarından istifadə imkanları sonsuzdur. Qlobal internet imkanları şagirdlər və müəllimlər üçün dili öyrənilən ölkə haqqında hər hansı vacib məlumatın əldə edilməsinə şərait yaradır: regionşünaslıq materialı, gənclərin həyatından elanlar, çap nəşrlərindən və jurnallardan qeydlər və s. Dərsdə internetin köməyi ilə alman dilinin didaktik öyrənilməsini tapşırıqlarla həll etməklə: oxu bacarıqlarını formalaşdırmaq, yazılı nitq biliklərini təkmilləşdirmək, şagirdlərin leksik fondunu zənginləşdirmək və onlarda alman dilini öyrənmək üçün motivasiyanı yaratmaq olar. Bundan əlavə, texnologiyalarla iş şagirdlərin biliklərini genişləndirmək məqsədi ilə alman dilli ölkələrdə öz həmyaşıdları ilə işgüzar əlaqələr saxlamaq imkanları verir. İnternetdə keçirilən viktorinalar, müsabiqələr, olimpiadalar şagirdlərin başqa ölkələrdən olan həmyaşıdları ilə yazışmaq, söhbət etmək, videokonfranslarda iştirakını təmin edir. Multimedia texnologiyaları, eyni vaxtda istifadə edilən bir neçə kompüter texnologiyalarının informasiya mühitinin məcmuəsi kimi başa düşülür: qrafika, mətn, video, animasiya, səs effektləri və s. Başqa sözlə, multimedia eyni vaxtda müxtəlif formalarda məlumatların təqdim edilməsidir (səs, qrafika, video, animasiya və s. istifadə etməklə) [4].

Bu gün internet keyfiyyətcə yeni, əlaqələndirən media kimi bütün mövcud olanlarla çıxış edir (video, mətn, audio, qrafika). Ədəbiyyatda “rəqəmsal texnologiya” termini birmənalı şəkildə şərh olunur. Bununla əlaqədar olaraq fərdi kompüterlərdən və mobil telefonlardan geniş istifadə rəqəmsal cihazlara daxil olmuş və “elektron”, “kompüter” sözləri ilə sinonimdir. Dil öyrənmə nəzəriyyəsi çərçivəsində “rəqəmsal texnologiya” termini bütün növ texnologiyalara - kompüterlər və elektron cihazlar (planşetlər, smartfonlar və s.) aiddir [4]. Rəqəmsal texnologiyalara daxil olan elektron alətlər, cihazlar, sistemlər və resurslar müxtəlif

formatlarda məlumatları saxlamaq və ya istehsal etmək qüvvələrinə malikdir. Beləliklə, tədqiqatımızda multimedia və rəqəmsal texnologiyaları müxtəlif formatlarda təqdim olunan, məlumatları ehtiva edən alətlər və resurslara (kompüter və mobil) əsaslanan texnologiyaları başa düşürük. "Rəqəmsal texnologiyalar" anlayışlarına kompüter, informasiya, rabitə və telekommunikasiya texnologiyaları aid olunur.

Bu gün əksər tədqiqatçılar E.S.Polat, M.A.Bovtenko, A.V. Zubov, İ.L.Bim, E.İ.Passov və başqaları multimedia və rəqəmsal texnologiyaların böyük didaktik və metodoloji xüsusiyyətlərə malik potensialı olduğunu öz əsərlərində qeyd edirlər. Tədqiqatda texnologiya əsaslı yanaşmanın məqsədi alman dilinin mənimsənməsində kommunikativ səriştənin internet tədris materialları ilə inkişafıdır. Məqsəd xarici dil biliklərinə (qrammatik, leksik, fonetik) və bacarıqlara (oxu, yazı, danışma, dinləmə) nail olmaq vasitəsidir. Tədrisdə istifadə olunan internet resursları linqvodidaktik əsaslara görə belə adlandırılır [10]:

- ✓ elektron lüğətlər (izahlı, tərcümə, terminoloji, istinad, təsvir, interaktiv);
- ✓ hədəf dildə orijinal materiallar (mətn, qrafika, video, audio, oyunlar);
- ✓ xarici dillərin tədrisi üçün xüsusi tədris resursları (elektron dərsliklər və kompüterdə yaradılmış çap tapşırıqları);
- ✓ tətbiqi proqramlar (MS Word, MS PowerPoint, veb brauzerlər);
- ✓ elektron sinxron vasitələri (çatlar, mesajlaşmalar, video konfrans) və sinxron (elektron poçt, forumlar, sosial tədqiqat qrupları, şəbəkələr) rabitə;
- ✓ tədris internet resursları (siyahı, multimedia albomu, Subject Sample).

Bu texnologiyalar dil tədrisində müxtəlif məqsədlər üçün şagirdlərin fəaliyyətinin təşkili formalarında istifadə olunur, məsələn:

- sinif otağında iş;
- dərsdənkənar iş;
- distant təhsil;
- qarışıq və ya birləşmiş təlim.

Qeyd etmək lazımdır ki, qarışıq öyrənmə hazırda xarici dillərin tədrisində ən perspektivli iş forması hesab olunur. Düzgün yanaşma proqramı ilə müəllim və

şagirdin birbaşa ünsiyyətini birləşdirin sinifdə rəqəmsal texnologiyalar müstəqil iş və ünsiyyəti elektron vasitələri ilə təşkil etməyə imkan verir. Lakin orta məktəbdə tədrisin kefiyyətli fəaliyyətinin təşkili formaları sinif otağı və sinifdənkənar işlərin əsas multimedia və rəqəmsal texnologiyalardan istifadə edilməsidir.

Hər bir şagird dilə maraqlı olduqda öyrənməyi sevir. Şagirdlərdə alman dilinə maraq yaratmaq üçün müəllimlərdən dərsliklərdən əlavə internet tədris materiallarının hazırlamasını və onlarla düzgün işləməyi tələb olunur. Xarici dillərin öyrənilməsində bir çox aparıcı nəşriyyatlar tərəfindən nəşr olunan ən yaxşı kitablar belə, müəyyən müddətdən sonra aktuallığını və təsirini itirir. Cəmiyyətdə hər hansı bir xarici dilin daim inkişaf etməsi üçün mobil bir dərslik bütün sosial və dil proseslərini nəzərə ala bilir. Bu gün internet ən müasir mənbələrlə, "canlı dil" ilə orijinal materialları öyrənməyə imkan verir. Bir çox təhsil saytları dərhal özünü yoxlama qabiliyyətinə malik çoxsəviyyəli testlər göndərir (şagirdlər qeyd edirlər ki, testlərdən sonra onların qrammatik anlayışlar haqqında bilikləri kəskin şəkildə artır), həmçinin nəticələrin təhlili ilə diaqnostik qiymətləndirmə təklif edirlər. Bu cür testlər şagirdin dilin mənimsənməsində bacarıqlarının formalaşmasına kömək edir. Şagird müstəqil iş bacarıqları qazanır, qabiliyyətlərinə daha çox inanır, səhv etmək qorxusu aradan qalxır (nəticələri özü və müəllim bilir). E.S.Polat, M.Y.Buxarkina, M.V.Moiseeva, A.E.Petrov, L.A.Novikov, F.Şatilov kimi tədqiqatçıların araşdırmalarına əsasən ibtidai və orta məktəb şagirdləri internetdə dil oyunlarından zövq alır, yuxarı sinif şagirdləri isə xarici dildə söhbətə qatılır, foruma mesaj göndərir, yorğunluqdan və ya həddən artıq yüklənmədən şikayət etmədən dostlar tapır [41]. Səbəb sadədir - müstəqil, fərdi iş imkanı maraqlıdır, sinifdə öyrənməkdən daha asandır. Təəssüf ki, bu cür işlər əsasən dərs saatlarından sonra həyata keçirilə bilər, çünki dərsdə vaxt məhduddur. Buna görə də, şagirdlərə internet resurslarından ən səmərəli şəkildə istifadə etməyi öyrətmək, distant təhsil almaq, internetdə sertifikatlaşdırılmış dil imtahanlarından keçmək imkanları haqqında məlumat vermək lazımdır. Hazırki dövrdə təlimin mobilləşməsinin əsas səbəbi yeni informasiya texnologiyalarının orta və ali təhsilin elmi fəaliyyətinin aparıcı aspektlərindən birinə çevrilməsidir. İstənilən ölkədə təhsil sistemləri cəmiyyətin sosial-iqtisadi və mədəni

inkişafının əsas vəzifələrinin həyata keçirilməsinə töhfə vermək üçün yaradılmışdır. Çünki insanı iqtisadi, mədəni həyatın müxtəlif sahələrində fəal işə hazırlayan məhz məktəb və universitetlərdir, cəmiyyətin siyasi, sosial həyatıdır. Buna görə də, təhsilin müasir dövrdə son dərəcə vacib və əsas məqsədi məktəbləri yeni informasiya-kommunikasiya texnologiyaları ilə təmin etməkdir. Qeyd edək ki, təhsil müəssisələrində bu gün cəmiyyətin ehtiyaclarına çevik cavab vermək bacarığı olan şagirdlərin hazırlanması böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən, alman dili dərslərində internet tədris materiallarından istifadə olunmasının üstünlükləri aşağıdakılardır:

- alman dilinin xarici dil kimi tədrisinin keyfiyyətinə və iş formalarına yeni tələblərin olması;
- internetə əsaslanan yeni distant təhsil sistemlərinin inkişaf etdirilməsinə olan ehtiyac.

İnternet resurslarından istifadə öyrənmə prosesini fərdiləşdirməyə kömək edir, şagirdlərin qabiliyyətlərini, öyrənmə səviyyələrini və meyllərini nəzərə alaraq dilin öyrənilməsini təşkil etməyə imkan verir. Dünya miqyasında bir şəbəkənin təmin etdiyi real dil mühitində ünsiyyət quran şagird, öyrənilən dilin əsl əhəmiyyətini dərk etməyə başlayır. H.J.Krumm, K.Bernd, B.Barbara, G.Noyner, H.Hans, M.Krüger, U.Qrever kimi alman dilçiləri öz əsərlərində həqiqi ünsiyyətin artıq internet materialları ilə mümkün olduğu nəticəsinə gəliblər. İnternet tədris materialları müxtəlif dil və nitq bacarıqlarını müstəqil şəkildə öyrətmək üçün geniş imkanlar yaradır və kommunikativ səriştəni inkişaf etdirir. Bundan əlavə, kompüterlə dili öyrənmək şagirdə qarşı tərəfdən kobud münasibətin yaranmaması, mənfi şərhlərlə öyrənmə prosesinin müşayiət edilməməsi, şagirdin özünü rahat hiss etməsinə imkan verir. Burada hər zaman şagird mümkün bir iş səviyyəsini seçə bilər və tədricən fərdi cədvəlinə uyğun olaraq sadədən daha mürəkkəbə keçə bilər.

Qeyd edək ki, alman dilini öyrətməyin əsas vəzifəsi bu dildə ünsiyyət qurmağı öyrətməkdir. Şagirdin kompüter arxasında oturaraq danışmağı öyrənməsi ehtimalı azdır. Ancaq şəbəkədən alınan məlumatlar, orijinal bir saytda danışmaq üçün maraqlı mövzular şagirdlərin alman dilinin öyrənməsinə olan motivasiyasını yüksəldir.

Alman dili dərslərində İKT-dən istifadə şagird motivasiyasını inkişaf etdirmək üçün təsirli bir faktordur. Əksər hallarda uşaqlar kompüter sinifində və interaktiv lövhədə işləməkdən zövq alırlar, çünki dərslər qeyri-rəsmi şəraitdə keçirildiyindən uşaqlara sərbəst hərəkət azadlığı verilir və bəziləri texnoloji bilikləri ilə daha da inkişaf edə bilirlər. İKT-ni tədris prosesinə tətbiq etməklə internetdə olan materiallardan istifadəyə daha çox imkan yaranır. Eyni zamanda alman dili müəllimi olaraq qeyd etmək olar ki, əldə edilən materialların öyrənilən mövzuya və şagirdlərin dil səviyyəsinə uyğunlaşdırmaq vacibdir. Bu olduqca vaxt aparan bir prosesdir. İnternetə əsaslanan kompüter proqramları, həmçinin mədəniyyətlərarası ünsiyyət prosesində "real" aparıcı rolunu oynaya bilər [5]. Uşaqlar alman dili dərslərindən sonra internet resurslarından fəal şəkildə istifadə edirlər. İnternet həm ünsiyyət vasitəsi, həm təhsil, həm əyləncə, həm də məlumat əldə etmək vasitəsi olaraq istifadə edilə bilər. Belə ki, maraqlandığımız ölkəşünaslıq haqqında bir mövzuda məlumat əldə etmək vasitəsi olaraq internetdən istifadə etmək mümkündür. Həqiqətən də, dərsliklər bu coğrafi materialı çox vaxt o qədər də maraqlı, rəngli və aydın təqdim etmir. Almaniya, İsveçrə və Avstriya şəhərlərinin görməli yerlərinə baxmaq, bu ölkələri internetdə izləmək təkcə şagirdlərimiz üçün deyil, həm də müəllimlərimiz üçün də heyrətamizdir. İnternet müxtəlif ölkələrə səyahət etməyə, parkları, görməli digər yerləri ziyarət etməyə imkan verir. Burada seçdiyimiz ölkə haqqında hər şeyi tapa bilərik - abidələrin foto-şəkillərindən, təbii sərvətlər və sənət haqqında alman dilində tam bir məlumata qədər.

İnternet tədris materialları oxumaq bacarıqlarını inkişaf etdirmək üçün təsirli bir vasitədir. Alman dilində oxumaq - giriş, baxış, axtarış və öyrənmə mərhələlərinə bölünür. Real həyatda bir insan hər cür oxumağı mənimsəmək ehtiyacı ilə qarşılaşır. Təəssüf ki, dərsliklərdə bütün bu oxu növləri üçün lazım olan miqdarda mətn yoxdur. İnternet bu boşluğu doldura bilir. Oxumağı öyrənmək ən çətin növdür, çünki mətndə olan bütün sözləri bilmək lazımdır. Uşaqlar internet materiallarından tanımadığı sözləri seçib yazırlar, tərcümə edirlər və oxşar ifadələri danışıqda istifadə etməklə işlədə bilirlər. Bəzən şagirdlər mətndə çatışmayan məlumatları tamamlamaqla bir test olaraq istifadə edirlər. Əgər oxu bacarıqlarının formalaşdırılması üzərində işləmək

planlaşdırılırsa, buna əvvəlcədən hazırlaşmaq, uyğun mətnləri axtarmaq və sonra şagird ilə birlikdə internetə girib mətnin giriş, baxış, oxuma mərhələlərini tətbiq etmək olar [5]. Şagirdlər üçün tez-tez həyatın bütün aspektlərini əhatə edən araşdırma məqalələri seçilir: idman, hava, mədəniyyət, sağlamlıq və s. Bu işin üstünlüyü, bütün şagirdlərin vəzifələri müəyyən olunmaqla birlikdə tam məqaləyə cəlb edilməsidir. Şagirdlər daha çətin məqalələri öyrənə bilər, həmçinin zəif olanlar da hava məlumatı və ya mədəniyyət sahəsindən hər hansı bir xəbəri əldə edə bilərlər. Uşaqlar internet tədris materiallarından oxumaq bacarıqları üzərində çalışmaqla yanaşı, söz ehtiyatlarını da genişləndirirlər. Bunu etmək üçün şagirdlər oxuduqları məlumatlara əsaslanaraq söz ehtiyatını yazmağa dəvət edilməlidir. Nümunə üçün seçilmiş məqalələr üzərində iş prosesində, həm də yeni qrammatik bacarıqlar əldə etmək mümkündür. Bu işin nəticəsi, müxtəlif xəbər məlumatlarının, aktual mövzuların təhlilinə əsaslanaraq, gənclərin problemlə bağlı fikirlərinə həsr olunmuş təqdimatların yaradılmasıdır. Ünsiyyət təcrübəsi olmadan kommunikativ səriştəyə yiyələnmək mümkün deyil və bu mənada alman dilinin öyrənilməsində internet resurslarından istifadə etmək sadəcə əvəzolunmazdır. Həqiqətən internet bir ünsiyyət vasitəsidir və internet materialları dilin mənimsənməsində unikal bir tədris vəsaitidir. Dili mədəniyyətlərarası konteksdə mənimsəmə virtual reallıqdakı ünsiyyətdə istifadə edilə bilən e-mail vasitəsi ilə həyata keçirilir [34]:

1. Dostluq yazışmalarının qurulması. Məktub mübadiləsi istənilən sinifdə və istənilən dil bilik səviyyəsində həyata keçirilə bilər. E-mail istifadəsi dilöyrənmə prosesinə marağı artırır. Şagirdlər artıq VII sinifdən elektron poçtla işləməyə başlayırlar. Məktəblərlə mübadilə proqramları zəminində onlar alman dilində yazışırlar. Əvvəlcə məktublar adi iş dəftərlərinə yazılır (müəllim yoxlayır), sonra şagirdlər bu yazıları e-mail vasitəsi ilə düzgün ünvanlara göndərirlər. Belə yazışmalar bu günə qədər davam edir və e-mail vasitəsi ilə alman dili biliklərinə yiyələnmə əsl fürsətdir.
2. Birgə təhsil layihələrinin yaradılması. İnternetlə bağlı bəzi müəllimlərin təcrübəsi çox məhduddur. Lakin, buna baxmayaraq internetdə əldə edilən məlumatlardan daim istifadə edirlər. İnternetdən istifadə təcrübəsi hər hansı

bir mövzuda müəllimlərə sonsuz informasiya, məsləhət verə bilər. Həmçinin müəllimlərin kitabları, filmləri, diskləri, videoları internetdə sifariş edə bilmək imkanı bu gün daha məqsədəuyğundur. Əlavə biliklərin əldə edilməsində internet materialları bu və ya digər günün nəyi ilə tarixdə məşhur olduğu haqqında hərtərəfli məlumat verə bilir.

Orta məktəb şagirdlərinin internet materialları ilə işləməsini daha asan və maraqlı etmək üçün müəllimlər dərsin yeni təlim metodları ilə təşkilinə diqqət etməlidirlər. Qeyd edək ki, onların dil bilikləri müxtəlif materiallardan istifadə etməyə imkan verir. Hər bir mərhələ üçün materiallar internetdə tədricən toplanmalıdır və bu materiallar şagirdlərin əksəriyyətinin artıq kompüterdən istifadə etməyi öyrəndikləri işdə kömək edir. Dərsdə internetdə işləmək üçün lazım olan bütün ünvanların olması daha əlverişlidir. Belə ki, dərs zamanı şagirdlərin hər hansı bir saytda işi tamamlaya bilmədikləri halda evdə istifadə edilə biləcək ünvanlar toplusuna malik olmalıdırlar. Təcrübədən məlumdur ki, internetdə bir sıra ünvanın olması həmişə məsləhətdir, çünki dərs vaxtı müxtəlif səbəblərdən bu və ya digər ünvanlar olmaya bilər. Məktəbdə internet resursları ilə işləmək və özünütəhsil üçün ən çox alman dili saytları ilə dili dərindən öyrənən şagirdlərin istifadə edə biləcəkləri proqramlardan birini dərs prosesində seçmək olar. Bu proqramda söz ehtiyatının seçildiyi 20-dən çox leksik mövzuların olması əsasdır. Şagirdlər üçün müxtəlif məzmunda mövzular təklif oluna bilər: “Ich und du”, “Zu Hause”, “Mein Leben”, “Zukunft”, “Lernen und arbeiten”, “Feste feiern”. Hər mövzunun adı ilə əlaqəli bütün lüğətləri proqramda oxumaq, hər bir sözün təsvirini görmək və audio müşayiət etmək olar [49]. Mövzu üzərində işlədikdən sonra şagird verilən materialı necə uğurla mənimsədiyini yoxlaya bilər.

Müasir texnologiyalar, internetdə mövcud olan məlumatları alman dilinin tədrisi prosesində hazırlamağa və onlardan səmərəli istifadə etməyə imkan verir. İnternet tədris materiallarından dərsin bütün mərhələlərində istifadə edə bilmək aşağıdakı üstünlüklərə malikdir:

- dərs hazırlığına;
- dərsin təşkilinə;

- yeni materialın dəqiq izahına;
- materialın daha kefiyyətli mənimsənməsinə;
- monitorinqdə düzgün qiymətlənməsinə.

İnternetdən dərsdə istifadənin ən müsbət cəhəti onun informativliyi ilə yanaşı, öyrənmə motivasiyasının yüksəlməsində böyük rolu olmasıdır. Belə təlim prosesində şagirdlər dilə, dil bacarıqlarına ehtiyac duyduqlarının səbəbini aydın şəkildə başa düşsələr, onların bu sahədə uğurları daha çox olar. Dərslərdə internetdən istifadənin səmərəliliyi [9]:

1. İnternetdən istifadə şagirdlərin material seçimində müstəqilliyi, onların fəallığı və marağı ilə xarakterizə olunur.
2. İnternetdən istifadə istənilən məlumatı əldə etmək və dil daşıyıcıları ilə istənilən məsafədə birbaşa ünsiyyət qura bilmək vasitəsidir.
3. İnternetdən istifadənin nəticəsi həm də yaradıcı ünsiyyət mühitinin yaradılması, təlim prosesində avtomatlaşmanın əldə edilməsidir ki, bu da öyrənmənin aktivləşməsinə və intensivləşməsinə gətirib çıxarır.
4. İnternetdən istifadə xarici dilin öyrədilməsində vaxt sərfinin rasionallığı baxımından ən lazımlı məlumatı seçməyə və həyata keçirməyə imkan verir.

Belə təlim, xüsusilə orta məktəblərdə alman dili dərslərinin əvvəllər yaradılmış tədris sisteminin yenidən qiymətləndirilməsini və ona yenidən baxılması zərurətini tələb edir. Köhnə texnologiyaları təkmilləşdirmək və inkişaf etdirməklə yanaşı, xarici dilin mənimsənilməsinin keyfiyyətinin yüksəldilməsinin əsas mənbələrindən birini, dilə motivasiyaının aktivləşdirilməsini nəzərə almaq lazımdır.

Qeyd edək ki, kompüter proqramları ilə şagird mövzu üzərində işlədikdən sonra verilən materialı necə uğurla mənimsədiyini yoxlaya bilər. Bu tapşırıq şagirdlər tərəfindən əlçatan, maraqlı və oynaq bir şəkildə edilir. Alman dilinin öyrənilməsi üzrə proqram dil bilik səviyyəsini nəzərdə tutan leksik vahidlərdən ibarətdir. Leksik quruluşlar şagirdlərin sözlərin mənasını müstəqil olaraq təxmin etmələri üçün vizual olaraq təqdim olunur. Söz ehtiyatının başa düşülməsi rəng sxemi ilə asanlaşdırılır: feillər qırmızı çərçivədə, sifətlər yaşıl rəngdə və CD-Rom ilə işləmək üçün təlimatları olan animasiyanı görə bilərlər. Təklif olunan tədris materialında təqdim olunan

mövzuları və onların məzmununu, naməlum sözləri başa düşmək üçün süjetlər canlandırılır. Həm öyrənənlər, həm də müəllimlər üçün bu, öyrənilmiş söz ehtiyatını təbii şəraitdə tətbiq etmək üçün ideal bir fürsətdir. Alman dili dərslərində internet tədris materiallarından istifadə olunması dilin mənimsənməsində linqvodidaktik problemlərin həll edilməsini asanlaşdırır.

Bu gün xarici dil müəllimi çox sayda internet resurslarında işləməyi yaxşı bacarmalıdır. Alman dilini öyrənmək üçün məhz müəllim onlayn mənbələrdən istifadəni tədris prosesi üçün zəruri hesab edir: Məsələn, internet:

- ✓ http://newgerman.narod.ru/teste.html
- ✓ http://www.studygerman.ru/online/test.html
- ✓ http://freebooks.net.ua/german/
- ✓ http://ndce.edu.ru
- ✓ http://www.karl-kirst.de/daf-links/
- ✓ http://www.hueber.de/shared/uebungen/delfin/lerner/uebungen/index.php
- ✓ http://www.schubert-verlag.de/

Şərti olaraq, xarici dilin öyrənilməsində internet resurslarını bir neçə qrupa bölmək olar [81]:

1. Xarici dil öyrənmək üçün faydalı olan məlumat mənbələri

Dil öyrənmə prosesində şagird tez-tez regionşünaslıq mövzusunda əlavə məlumatlar tapmalı, qrammatika ilə bağlı məlumatları dəqiqləşdirməli, tanımadığı sözə baxmalıdır və s. İnternetdə çıxışlar, hesabatlar, referatlar hazırlamaq üçün geniş bir məlumat bazası var. Təqdimatlar və ensiklopedik xarakterli əlavə məlumatları dərhal əldə etmək üçün hədəf dildə ədəbi nitqi, ünsiyyətdə olan müxtəlif xalqların nitq xüsusiyyətlərini, öyrənilən dilin ölkəsinin mədəniyyətini, adət-ənənələrini öyrənməklə ölkə haqqında biliklərlə tanış olmaq imkanı var.

2. Dil bacarıqlarının və nitq bacarıqlarının formalaşması, öyrədilməsi və bərpasına yönəlmiş testlər sistemi

Yadda saxlamaq lazımdır ki, yalnız testlərdən istifadə etməklə xarici dili öyrənmək mümkün deyil. Testlər qrammatik materialı və yeni lüğətləri mənimsəmək üçün təsirlidir.

3. Resurslar - dil öyrənməyi asanlaşdırmaq üçün hazırlanmış vasitələr:
- ✓ onlayn lüğətlər və tərcüməçilər (orfoqrafiya yoxlama proqramları);
- ✓ tələffüz bacarıqlarını inkişaf etdirmək üçün səs sintezatorları daxildir.

4. Nitq fəaliyyətinin bacarıq və vərdişlərinin formalaşması üçün mənbələr:
- oxu: çox sayda mətn materialı və onlara verilən tapşırıqları olan dil saytları.
- yazı: yazı bacarıqlarınızı inkişaf etdirmək üçün internetdə bir çox faydalı mənbələr var.
- dinləmə: xarici dildə nitqi eşitmək qabiliyyəti şagirdlər üçün vacib öyrənmə və ünsiyyətyönümlü bir bacarıqdır. Son vaxtlara qədər dinləmənin öyrədilməsində vacib bir problem, dinləmə üçün tədris materiallarının kifayət qədər təmin edilməməsi və ya təlim materialı olan kasetlərin/ disklərin olduqca baha olması idi. Şagirdləri dinləmə tapşırıqlarına hazırlamaq üçün təcrübə və buna görə də, böyük miqdarda təlim materialı tələb olunur. Lakin bu prosesdə çıxış yolu pulsuz orijinal internet mənbələridir.
- danışmaq: internetin informasiya resurslarından istifadə edərək təhsil prosesinə inteqrasiya etməklə xarici dil dərsində bir sıra didaktik vəzifələri daha effektiv həll etmək mümkündür:

✓ müxtəlif mürəkkəblik dərəcəsi olan şəbəkə materiallarından birbaşa istifadə edərək oxumaq bacarıq və vərdişlərini formalaşdırmaq;

✓ müəllim tərəfindən hazırlanmış internetdəki orijinal audio mətnlərə əsaslanaraq dinləmə bacarıqlarını artırmaq;

✓ müəllimin və ya hər hansı bir şagirdin təqdim etdiyi materialların, eləcə də şəbəkədəki materialların problemli müzakirəsinə əsaslanaraq monoloq və dialoq ifadə etmək bacarıqlarını artırmaq;

✓ yazmaq - tərəfdaşlara yazılı cavablar yazma, tezislərin, esselərin və tərəfdaşların birgə fəaliyyətinin digər yazılı materiallarının hazırlanmasında iştirak etmək bacarıqlarını artırmaq;

- ✓ söz ehtiyatını - həm aktiv, həm də passiv, hədəf dildə olan xalqın mədəniyyətinin, cəmiyyətin sosial və siyasi quruluşunun inkişafının müəyyən bir mərhələsini əks etdirən müasir dilin lüğət ehtiyatlarını zənginləşdirmək;
- ✓ ədəbi nitq, ünsiyyət şəraitində müxtəlif xalqların nitq davranış xüsusiyyətləri, mədəniyyət xüsusiyyətləri, öyrənilən dilin ölkələrinin ənənələri də daxil olmaqla mədəni məlumatlarla tanış olmaq;
- ✓ autentik materialların sistemli istifadəsi, şagirdlərin yalnız dərslik mətni ilə bağlı suallarının deyil, həm də hər kəsi maraqlandıran aktual problemlərin müzakirəsi əsasında şagirdlərin xarici dil fəaliyyətinin motivasiyasını formalaşdırmaq.

Kompüter texnologiyaları ilə işləyərkən, müəllimin əsas vəzifəsi şagirdlərin yaradıcı fəaliyyətini stimullaşdırmaq, şəxsi inkişaflarını və yaradıcı axtarışlarını dəstəkləmək və düzgün istiqamətə yönəltməklə rolu dəyişir. Şagirdlərlə əlaqələr əməkdaşlıq və birgə yaradıcılıq prinsipləri üzərində qurulur. Bu şəraitdə, bu gün inkişaf etmiş tərbiyə işinin təşkilati formalarına yenidən baxmaq lazımdır:

- ✓ şagirdlərin müstəqil, fərdi və qrup işlərinin nisbətinin artması;
- ✓ izahlı-illüstrasiyalı tədris metodunun üstünlüyü ilə ənənəvi dərsdən uzaqlaşması;
- ✓ axtarış və tədqiqat xarakterli praktiki və yaradıcı işlərin həcminin artması.

Lakin internetdə müxtəlif dillərdə müxtəlif mövzularda çoxlu miqdarda mətn, audio və vizual material olduğu üçün bu tip tədris mənbələri ilə iş metodoloji baxımdan savadlı və rasional şəkildə təşkil edilməlidir, əks halda şagird sadəcə müxtəlif məzmunlu və keyfiyyətli məlumat bolluğu ilə təmin oluna bilməz. Buna görə təhsil məqsədləri üçün şəbəkə mənbələrindən optimal və səmərəli istifadə etmək üçün bir çox hazırlıq işləri tələb olunur ki, bunun da nəticələri ümumi və xüsusi iş prinsiplərinin, şəbəkə resurslarının, saytların və materialların, həmçinin metodiki vasitələrin və tədris texnikasının gücünü əhəmiyyətli dərəcədə yeniləyir.

Nəticə olaraq qeyd edək ki, dilin fəal mənimsənməsində yeni təlim texnologiyalarının xarici dillərin tədrisinə tətbiqi yolları bu gün metodikada ən aktual sahələrdən biridir. Alman dili dərslərində internet tədris materiallarından istifadə olunmasının linqvodidaktik problemləri araşdırdığımız elmi-metodiki ədəbiyyatlarda əsaslı olaraq öz həllini tapır. İnternet tədris materiallarının dilin mənimsənilməsində istifadə məqsədi bu gün məhz şagirdlərimizin hədəf dili ölkəsi haqqında olan bütün məlumatların əldə edilməsidir. Yuxarıda göstərilənlərə əsaslanaraq yeni texnologiyaların inkişafı orijinal materialların və audio-vizual medianın internetdən istifadəsini orta məktəblərdə xarici dillərin tədrisinin müasir və effektiv üsullarından birinə çevrilməsini başa çatdırır.

### *1.2. Alman dili dərslərində internet tədris materiallarından istifadə olunmasının metodiki əsasları*

Kompüter öyrənmə texnologiyaları, ilk növbədə, multimediya və internet, ünsiyyət bacarıqlarının formalaşması yollarını yenidən nəzərdən keçirməyə imkan verən, öyrənmənin interaktivliyini yaradan və təmin edən, xüsusi bir təhsil mühitinin modelləşdirilməsi prosesidir. Xarici dildə ünsiyyət üçün zəif motivasiya, dil mühitinin olmaması həmişə alman dilini xarici dil kimi öyrətməyin səmərəliliyinin artırılması üçün problem yaradır. Tələbələrin formalaşan ünsiyyət bacarıqlarının keyfiyyətini əhəmiyyətli dərəcədə artırmaq ehtiyacı, tədris prosesini yaxşılaşdırmaq üçün yeni metodoloji üsullardan istifadə etməyi tələb edir. Müasir metodologiyada təhsil fəaliyyətində kompüterdən və kompüter texnologiyalarından istifadə ilə bağlı yeni anlayışlar formalaşır, xarici dil mesajlarının qavranılması və anlaşılması modellərinin qurulmasına yeni yanaşmalar, ünsiyyətin kommunikativ təbiəti, onun psixoloji, linqvistik və metodoloji xüsusiyyətləri müəyyən edilir, dilin yaranmasında fərdi amillərin rolu müəyyən edilir. Mədəniyyətlərarası dialoqa, mədəniyyətlərarası ünsiyyətin bu əsasda hazırlanmasına xüsusi diqqət yetirilir. Bu mənada, internet orijinal məlumat mənbəyi, xarici dilin idrak və təhsil məqsədləri üçün istifadədə motivasiya edən bir vasitə kimi böyük əhəmiyyət kəsb edir. Son illərdə alman dilinin tədrisi metodikası ilə bağlı tədqiqatlar fəal şəkildə aparılır, xarici dillərin tədrisində

kompüter texnologiyalarının tətbiqi sahəsində təcrübələr öz müsbət nəticəsini verir. İlk təcrübələrdən sonra metodistlər internetin tətbiqinin mübahisəsiz üstünlükləri olduğu qənaətinə gəlsələrdə, digər tərəfdən təhsilin kompüterləşdirilməsinin linqvistik, psixoloji və metodoloji əsaslandırması ilə əlaqəli problemlərlə üzləşdilər (E.G.Azimov, E.S.Polat). E.S.Polat tədris proqramına əsasən, telekommunikasiyanın xüsusiyyətlərində müasir təhsilin didaktik və psixoloji meyllərinin üstünlük təşkil etməsini daha uyğun hesab edə bildi [5, s.41].

Dərsin məqsədinə uyğun olaraq multimedia və internet resursları kompüterdə (oflayn resurslar) mövcud olan paylaşım yerli şəbəkə və ya internetdə (onlayn resurslar) qəbul edilir. Xarici dillərin tədrisində internet resurslarının xüsusiyyətləri aşağıdakıları yerinə yetirə bilir:

- tədris (dili təqdim etmək üçün istifadə olunan material);
- təlim (bacarıqları və ünsiyyət bacarıqlarının inkişafı);
- nəzarət (nəzarət etmək üçün istifadə olunan bacarıqların formalaşdırılması);
- dərs planlaşdırma (müəyyən edilmiş elementlərin birləşdirilməsi).

Rəqəmsal və multimediadan istifadə edərək dərs texnologiyaları ümumi qanunlardan istifadə etməlidir, dərsin planlaşdırılması, yəni işin təşkili mərhələsi:

- ✓ mətndən əvvəl (rəqəmsal texnologiyalarla tapşırıq);
- ✓ mətn;
- ✓ mətndən sonra (tamamlandıqdan sonra yerinə yetirilən tapşırıqlar).

Təbii ki, bu cür vəzifələr həm konkret dərsin, həm də dərs mərhələlərinin təşkilinə uyğundur. Dərs planlaşdırarkən son dərəcə vacibdir ki, şagirdlərin kompüter bacarıqları sahəsində ilkin hazırlıq səviyyəsini müəyyən etmək: məsələn, giriş testindən istifadə etməklə. Xarici dil dərsi əsasında şagirdlərə rəqəmsal mənbələr lazımdır ki, ümumi və tədris kompüter bacarıqlarına müəyyən səviyyədə (təhsil səviyyəsindən asılı olaraq) malik olsunlar. İKT-dən istifadə etməklə xarici dil dərsində işin təşkilati formaları eyni qalır: fərdi, qrup və cütlüklə iş.

Məlumdur ki, müasir kompüter proqramları şagirdlərin fərdi ehtiyaclarını və maraqlarını, bir dili mənimsəmək/ mənimsətmək üçün müxtəlif strategiyaları nəzərə

alaraq, tədris materialının təqdim edilmə üsullarını fərqləndirə bilər, fərdi təlim formaları təmin edə bilər, cəlb etmək üçün geniş stimul yarada bilər və belə metodiki əsaslarla xarici dildə danışma fəaliyyətində olan şagirdlər hədəf dillə əlaqə müddətini artıra bilərlər [5]. E.G.Əzimov qeyd edir ki, interaktivlik, müstəqillik, fərdiləşmə və bütün bunların nəticəsi olaraq öyrənməyə şagirdyönümlü bir yanaşma, kompüter təlim materiallarının sinifdə istifadəsi üçün yeni tələblər hazırlanmalıdır [5]. Metodoloji ədəbiyyatda, o cümlədən dissertasiyalarda, kompüterin imkanları, ilk növbədə, müstəqil işin təşkili, təlim vasitəsi kimi nəzərdən keçirilirdi. E.S.Polatın fikirlərinə görə, internetin yayılması metodistlərin qarşısına belə bir güclü məlumat mənbəyinin xarici dil dərsində istifadə imkanlarını yeni bir şəkildə başa düşmək vəzifəsi qoyur [41]. İnternetin imkanlarından və resurslarından istifadənin xarici dillərin tədrisində aşağıdakı istiqamətləri təklif olunur:

- ✓ şəbəkə materiallarının dərsin məzmununa daxil edilməsi (onların tədris planına inteqrasiyası);
- ✓ müstəqil dil öyrənmə;
- ✓ bir təlim layihəsi üzərində iş çərçivəsində məlumat axtarmaq;
- ✓ distant təhsil sistemində sistemli dil öyrənilməsi və s.

Bu gün rəqəmsal texnologiyalardan istifadə etmədən müasir dünyanı təsəvvür etmək çox çətindir. İnternetdən istifadə həyatımızda dilin daha əhəmiyyətli öyrənilməsinə və getdikcə daha çox təlim materiallarının kompüter texnologiyaları vasitəsilə mənimsənilməsinə səbəb olub. Bütün dünyanı bürüyən pandemiya Azərbaycan təhsili qarşısında yeni bir vəzifə qoyur - distant təhsili təşkil edən rəqəmsal texnologiyaya təcili ehtiyacın yaranması. Təcrübənin göstərdiyi kimi, tapşırıq yerinə yetirməkdən imtina etmək o qədər də asan deyildi, çünki məsafə formatı xarici dilin tədrisi metodologiyasına yenidən baxılmasını tələb edirdi. Bu tədqiqatda, distant təhsil formatında faydalı ola biləcək pulsuz onlayn mənbələrini qeyd etmək olar. Biz təlim materialları sayəsində tədris prosesini zənginləşdirmək və daha əyləncəli etmək imkanı yaratmış oluruq. Alman dili dərslərində internet tədris materiallarından istifadədə elektron dərsliklərindən başlamaq istərdik, çünki bu elektron məhsullar təhsildə ən vacib amillərdi. Dərsliyin elektron forması, təhsil

problemlərinin həllində çap olunmuş dərsliyi tamamlayan elektron resursdur. Üstəlik, müəllimin ünsiyyəti təşkil etməsinə, yerinə yetirilən tapşırıqların düzəldilməsinə və nəzarət etməsinə kömək edərək uzaqdan qarşılıqlı əlaqənin yaradılmasını çox asanlaşdırır.

Bu günə qədər Almaniyada bir çox nəşriyyatların alman dilinin öyrənilməsi üçün bütün dərslikləri elektron formada nəşr olunur. Əlavə materiallar:

- ✓ www.deutschunterricht.de
- ✓ www.deutschunterricht.at və s. saytları internet resursundakı elektron kataloqda mövcuddur.

Xüsusən alman dili öyrənənlər üçün yaradılmış bir neçə məşhur YouTube kanallarını qeyd edək. Tədris video materialları alman dili dərsləri ilə tanışlığı daha interaktiv, sadə və maraqlı edəcək. Burada hər kəs özünə uyğun dərslər tapa bilər və tam olaraq ehtiyac duyduğu bacarıqları inkişaf etdirə bilər.

Xarici dildə mütəmadi olaraq veb seminarlar, ustad dərsləri, onlayn dərslər YouTube kanalında yerləşdirilir. Bu tədris vəsaitləri, ilk növbədə, ən son təlim materialları, ədəbiyyatı və alman dilinin öyrədilməsinin son tendensiyaları haqqında öyrənmək istəyən müəllimlər üçün faydalı olacaq. Alman dili dərsləri üçün tədris materialı olan videonun hazırlanması və kanal vasitəsi ilə öyrənənlərə yönəldilməsi ən uyğun bir yanaşmadır. Kanalın müəllifləri hər həftə müəyyən bir dil səviyyəsi üçün bir neçə təlim videosu yerləşdirirlər. Burada qrammatika, lüğət, tələffüz, alman mədəniyyəti və dili ilə bağlı videolar tapa bilərsiniz. Alman şəhərlərinin küçələrində ana dilini bilənlər ilə kiçik dialoqlar xüsusilə maraqlıdır. Bütün videolar altyazı ilə müşayiət olunur, belə üsul dinləməni anlamaq üçün ən vacib vasitədir. GermanSkills.com - müəllif kanalında alman dilinin ən çətin görünən tərəflərini sadə və aydın şəkildə izah edən bir çox videolar var. Bu mənbə alman dilinin qrammatikasını öyrənmək üçün əvəzolunmazdır və alman dilinin öyrənilməsinə aid olan bütün sahələri: sintaksis, tələffüz və lüğət inkişafına dair tədris videolarını əhatə edir. Araşdırma müddətində alman dilini öyrənmək üçün əsas dərslərə əlavə olaraq və ya öz-özünə təhsil üçün istifadə oluna biləcək bir sıra pulsuz onlayn mənbələri topladıq [70]:

1. Deutsche Welle, canlı dili və müasir lüğətlə tanış olmaq üçün ən yaxşı yoldur.

Eksperiment tədris prosesində müəyyən edə bildik ki, uşaqların alman dilini öyrənməyə marağı artır, onlar olimpiadalarda, viktorinalarda, müsabiqələrdə, testlərdə fəal iştirak etməyə, tədqiqat işləri aparmağa həvəslə çalışırlar. Uşaqların müxtəlif səviyyəli müsabiqə və tədbirlərdə iştirakı onların yaradıcılıq qabiliyyətlərinin inkişafından xəbər verir. Onlayn tədrisdə "Olimpiada" müsabiqəsi şagirdlərin intellektual səviyyələrini müəyyənləşdirməklə qrupda iştirak edən şagirdlərin tutduqları yerlər təqdim edilir və onların yeni texnologiyalar ilə dilin öyrənilməsinə maraqlarını artırır. Məsələn: 2021-ci ildə 5A sinif şagirdləri arasında aparılan oyun "Alman yarmarkası" müsabiqəsində onların 1-ci yeri tutması; 5B sinif şagirdlərinin "Alman dilli ölkələr" mövzusunda alman dilində intellektual marafonun keçirilməsində 2-ci yeri tutması və həmçinin, 9-cu sinif şagirdlərinin "Almaniyada bayramlar" adlı təqdimatları internet resurslarından istifadə etməklə əldə edilən bilik və bacarıqların kefiyyətli mənimsənilməsinin nəticəsidir.

İnternet tədris materiallarının əsasında aparılan eksperimental tədris aşağıdakı nəticələri bizə təqdim etməyə imkan verir:

1. Orta məktəb şagirdlərinin xarici dilin tədrisi prosesinə internet imkanlarının inteqrasiyası tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə, xarici dilin tədrisi prosesinin optimallaşdırılmasına və intensivləşdirilməsinə, habelə xarici dildə ünsiyyətin formalaşmasına kömək edir.
2. İnternetin imkanlarının səmərəli inteqrasiyası şagirdlərin müstəqil işinin təşkili və tədris prosesinin dəstəklənməsi məqsədilə xarici dil müəllimi tərəfindən internet-təlim texnologiyalarının tətbiqinin vasitəsi kimi şəxsi internet saytından istifadə etmək imkanı əldə edilir.
3. Şagirdlərin müstəqil işi onların xarici dildə xüsusi hazırlanmış fəaliyyətlərdə iştirakı ilə həyata keçirilir: elektron resurslarla müstəqil iş və internet rabitəsi. Xarici dil müəlliminin şəxsi internet saytı, internetdəki məlumat və ünsiyyət xidmətlərindən istifadə edərək, şagirdlərin müstəqil işlərini səmərəli təşkil etməyə və idarə etməyə imkan verir, eyni zamanda şagirdlərə təhsilin mövcudluğunu və keyfiyyətini artıran müxtəlif növ məlumatlar verir.

4. Veb saytın quruluşu və xidmətləri, məzmununu təhsil prosesinin məqsəd və vəzifələrinə uyğunlaşdırmağa, həm şagirdlərin, həm də müəllimlərin fərdi xüsusiyyətlərini və xüsusi ehtiyaclarını nəzərə almağa və daimi rəy bildirməyə imkan verir.

Tədqiqatın nəticələrinin etibarlılığı tədqiqatın ilkin nəzəri müddəalarının aydın olması, obyektinə, məqsədinə uyğun olan bir sıra tədqiqat metodlarının istifadəsi, pedaqogikanın, psixologiyanın və metodologiyanın sübut edilmiş müddəalarının istifadəsi ilə əldə edilən məlumatların statistik əhəmiyyəti kəmiyyət və keyfiyyət təhlilinin birləşməsi kimi təmin edilir. Eksperiment tədris müddətində hazırlanan tapşırıqların internet resursları vasitəsilə həlli nəticə olaraq şagirdlərin bilik, bacarıq və vərdişlərinin inkişafına səbəb oldu. Alman dilinin orta ümumtəhsil məktəblərində internet materialları ilə tədrisində biz şagirdlərin dilə olan motivasiyasının yüksəlməsini və ünsiyyət bacarıqlarının formalaşmasının şahidi olduq. Alman dilinin kefiyyətli mənimsənməsi motivasiyanın təsirli vasitə kimi tədris materialları ilə müxtəlif növ internet oyunlardan və iş formalarından istifadə edilməsini zəruri hesab edir.

### *2.3. Yoxlayıcı eksperiment*

Yoxlayıcı eksperiment, bu, tədris formalarını sınaqdan keçirmək və onların effektivliyini qiymətləndirmək imkanıdır. Bu gün xarici dillərin tədrisi biz müəllimlərə kommunikasiya alətlərindən yeni keyfiyyətdə istifadə etməyi tövsiyə edir: müəllim və şagirdlər, onların valideynləri arasında ünsiyyət üçün, həmçinin tədris materiallarının mübadiləsi üçün. Tədris üçün hansı kommunikasiya alətlərindən istifadə edilə bilər? İnternetyönümlü tədrisdə bütün şagirdləri və ya mövzu üzrə tapşırıqları bir proqramda birləşdirmək mümkündür. Materialların məzmununu yalnız dəvət olunmuş istifadəçilər görə bilər və onlar ümumi söhbətdə operativ məlumat verə, əlaqə saxlaya və suallara cavab verə bilərlər. Konstruktiv ünsiyyət üçün qruplar bir o qədər böyük olmamalıdır: müəyyən edilmiş mövzuda söhbət üçün bir iş qrupu. Söhbətlər ərzində istifadəçilər mesajları göndərə, faylları yönləndirə və konkret kiməsə müraciət etmək üçün adları qeyd edə bilər. Qrup

söhbətləri ilə necə işləmək haqqında müəllimlər daha çox internet sayıtlarından oxuya bilər.

Tədris materiallarının internetdə yerləşdirilməsi və onlardan dərs prosesində istifadə bu gün aktualdır. Qruplarda və şəxsi səhifələrdə müxtəlif formatlarda material yerləşdirə bilərik: sənədlər (təqdimatlar, fayllar, cədvəllər), şəkillər, audio, video. Sənədləri birbaşa internetdə yükləmək və ya baxmaq üçün əlavə proqramlar tələb edilmir. Bu vasitələr bir çox məlumatları, mətnləri gözəl formada yerləşdirməyə imkan verir: hissələrə bölünür, əsas anlayışları vurğulayır, mənbələrə və ya əlavə materiallara keçidləri göstərir. Biz, həmçinin məqaləyə şəkillər və videolar əlavə edə bilərik. Əlavə edilmiş fayllar kimi deyil, mətn boyunca.

İnternet tədris materiallarından (video və canlı yayımlar) dərs zamanı istifadə şagird motivasiyasının yüksəlməsinə səbəb olur. Eksperiment tədrisin təhlilində müşahidə etdik ki, vizual materiallar həm aşağı sinif şagirdlərinin, həm də yuxarı sinif şagirdlərinin marağına səbəb oldu.

Distant təhsil internetyönümlü tədrisin bir növüdür. Bu təhsil növü pandemiya dönəmində bütün dünyada və ölkəmizda aktuallıq tapdı. Distant təhsilin pandemiya dövründə tətbiqi yoxlama eksperiment dərs üçün video materialların əvvəlcədən yazılmasına və ya canlı yayımlanmasına səbəb oldu. Yayım mobil telefondan, notbukun ön kamerası vasitəsilə və ya xüsusi avadanlıqdan istifadə etməklə aparıla bilər. İnternet tədris materiallarından distant təhsildə istifadədə məktəblərə və şagirdlərə bir çox tövsiyələrimiz oldu:

- ✓ şagirdləri və müəllim heyətini distant rejimə keçid haqqında məlumatlandırmaq. Təhsil müəssisəsinin rəsmi saytında bu barədə elan etmək.
- ✓ dəyişikliklər və yeniliklər haqqında operativ məlumat üçün qrupların kuratorları ilə söhbət yaratmaq.
- ✓ hər bir müəllimin uzaqdan dərs keçirmək və onlayn təlim materialları yaratmaq üçün texniki imkanlara malik olduğundan əmin olmaq. Hər bir şagird uzaqdan təhsil almaq üçün texniki imkanlara malik olmalıdır.
- ✓ lazım gələrsə, müəllimlərə metodik və texniki yardım edilməlidir. Məsələn, auditoriyanı vebinarlar və video mühazirələr yazmaq üçün təchiz

etmək. Bəzilərinin brauzerdə dərsliklərin yerləşdirilməsi üçün də köməyə ehtiyacı ola bilər.

Müəllimlər və şagirdlər üçün tövsiyələr:

- ✓ mövzu üçün qapalı qrup yaradın.
- ✓ təsvirdə fənnin adını və onun aparıldığı təhsil müəssisəsini göstərin.
- ✓ izahlı qeyd yazın.
- ✓ şagirdlərə internetlə ev tapşırığının təqdimi forması haqqında məlumat verin.
- ✓ şagirdləri cəmiyyətə qoşulmağa dəvət edin.
- ✓ materialları ardıcıllıqla dərc edin: dərs - giriş.
- ✓ məlumatı verdiyiniz şəkildə yerləşdirin: məsələn, mühazirə - video, məqalə və ya təqdimat formatında (sənəd əlavə edin). Video zəng zamanı şərh edilə bilən və ya müzakirə edilə bilən sənəd formatında ev tapşırıqlarını qəbul etmək rahatdır (lazım olduqda).
- ✓ vebinarlara ev sahibliyi edin.

Müəllim şəxsi səhifədən və ya sayıtdan mobil telefon, notbuk və ya xüsusi avadanlıqdan istifadə edərək canlı yayıma başlaya bilər. Proses müddətində qarşıya bir çox çətinliklər çıxır:

- ünsiyyəti kompüterdən necə yayımlamaq olar?
- ünsiyyəti mobil yayımla necə aparmaq olar?
- şagirdlər və ya valideynlərlə ümumi söhbətə necə daxil olmaq olar?

Yeni tədris materiallarını internetdə axtarmaq, onları seçmək və dərs prosesində istifadə etmək kommunikativ ünsiyyətin formalaşmasında məktəb müəllimləri üçün alətlərdən istifadə ilə bağlı əsas xəttini təşkil edir.

Apardığımız yoxlayıcı eksperimentin müşahidəsi bizə aşağıdakı mülahizələri söyləməyə imkan verir. Yoxlayıcı eksperiment zamanı biz şagirdlərlə internet sayıtlarından əldə etdiyimiz məşhur reklam afişalarının, alman dilli cizgi filimlərinin, uşaqlar üçün sevimli olan mahnıların və digər öyrədici materialların analizini apardıq. Təhlil zamanı gözlədiyimiz nəticələri əldə etmiş olduq:

- ✓ öyrəməyə meyillidirlər;

- ✓ müsbət emosiyalar üstünlük təşkil edir;
- ✓ texniki avdanlıqla işləməyə həvəslidirlər.

Belə xoş hisslərin yaranması məlumatın aydın və anlama ilə müşayiət olunduğunu göstərir. Şagirdlərin mövzu ətrafında müzakirə və təhlilləri onların dünyagörüşlərinin genişləndiyini əsaslandırır. Şagirdlərin diqqətinin əsasən internet tədris materiallarına, (reklam olunan məhsula, cizgi filimlərinə və s.) onun üstünlüklərinə və mənfi cəhətlərinə yönəldildiyi aşkar olundu. Buna görə, inamla deyə bilərik ki, yeni təlim texnologiyalarından olan  internet sayıtlarından istifadə etməklə öyrənilən dil haqqında daha çox tədris materialları şagirdlər tərəfindən qəbul edilir. Tədris materiallarına münasibət və nəzərdən keçirdiyimiz digər göstəricilər nəzarət qrupunda olan şagirdləri praktik olaraq dəyişmədi. Apardığımız eksperiment müddətində bu qruplardakı şagirdlərin öyrənilən materiallar haqqında olan müzakirələrinin göstəriciləri əvvəl yaranmış problemə maraq və dünyagörüşlərinin genişləndirməklə əlaqələndirilir. Metodiki və psixoloji üsullardan istifadə edərək yoxlama mərhələsində eksperimental qrupdakı şagirdlərdə yaranan dəyişikliklər müəyyənləşdi:

Şagirdlərdə maraqların yaranması

Hər iki qrupda olan şagirdlərin diqqət və marağında əhəmiyyətli dərəcədə dəyişikliklər oldu. Yoxlama eksperimentin aparılmasından sonra eksperimental və nəzarət qrupundakı şagirdlərin səhvə yol verdikləri məlum olur. Beləliklə, eksperimental qrupun şagirdlərinin diqqətini dəyişdirmək bir qədər yaxşılaşdı, çünki onlar bütün tapşırığın 85 %-ni tətbiq edə bildilər. Nəzarət qrupunda təkrarlanan sözlərin sayı praktik olaraq dəyişməz qaldı. Hər iki qrupda diqqətin aktivliyi xeyli artdı.

Eksperimental qrupunda aparılan müşahidə şagirdlərin üstünlüyünü: həm internet materiallarını başa düşüb əldə etmə nəticələri, həm də eksperiment iş zamanı onların fəal iştirakı təsdiqlənir. Təcrübə müddətində həm eksperiment, həmdə nəzarət qruplarındakı şagirdlərdə əldə etdiyimiz müşahidələri qeyd edək:

- şagirdlər tərəfindən internet materiallarının qavranılmasıdır;

- şagirdlərin internetə qarşı münasibəti, həmçinin internet mövzularına diqqətin ifadə olunması (musiqi, film, yumor və ya maraqlı hekayə). Burada şagirdlər dilin struktur elementlərinə qarşı diqqətli olur;
- şagirdlər yalnız müşahidənin əsas obyektlərini qavramaqla, həm də onların diqqət, yaddaş və düşüncə baxımından əhəmiyyətli fərqlərin olduğu müəyyənləşir;
- şagirdlər internet tədris mətninin ən çox məlumat hissəsini və ifadələrini öyrənərək dünya görüşlərini genişləndirirlər;
- şagirdlər üçün müasir tədris materialları onların yaş və fərdi xüsusiyyətləri nəzərə alınaraq yaradılır.

Dinləyib-anlama bacarıqlarının formalaşması

Təcrübədən əvvəl əgər şagirdlərin öyrəndikləri sözlərin sayı müəyyən faiz təşkil edirdisə, təcrübədən sonra eksperimental qrupda bu say çoxalır, nəzarət qrupunda isə sözlərin sayı müəyyən qədər artır.

Alman dilində mətnlərinin təhlili zamanı şagirdlər bir çox tapşırıqları həll etməklə bu mətnlərin xüsusiyyətlərini, mətnlərin məzmunu haqqında şifahi və yazılı məlumat hazırlama yolları və internet texnologiyaları əsasında mətn məlumatlarını əldə etdilər. Tədqiqatımızda məqsəd şagirdlərdə kommunikativ vərdişlərin yaradılması üçün tədris prosesini yeni təlim texnologiyaları əsasında təşkilidir. Tədqiq etdiyimiz sahələrin əhəmiyyəti öyrənilən dil materiallarının hazırlanmasının xüsusiyyətlərinə müəyyən qədər diqqətin yetirilməsidir.

Şagirdlərin öyrəndikləri dilin mədəniyyəti ilə yaxından tanış olmaqla ünsiyyət qurma bacarığını inkişaf etdirmək əsas məqsədlərdən biridir. Buna əsaslanaraq, tətbiq etdiyimiz texnologiya zamanı əldə etməli olduğumuz materiallar xarici dildə bilik və bacarıqların yaradılmasına səbəb olur.

Şagirdlərin öz doğma mədəniyyətləri haqqında internet sayəsində mövcud biliklərə yiyələnməsi:

a) cəmiyyətimizə aid olan internet tədris materiallarının qavranılması, başa düşülməsi və mümkün olan çətinliklərin aradan qaldırılması;
b) dil və mədəniyyətin mətnlərdə təhlili/ müqayisəsi.

Yuxarıda qeyd etdiyimiz kimi, yeni texnologiyaların tədris prosesinə tətbiqinin məqsədi şagirdlər arasında ünsiyyət bacarıqlarını yaratmaqdır. Bu, təlim prosesi öyrənilən dilin mədəniyyətinin və bu dildə qarşılıqlı əlaqənin yaradılmasını nəzərə almaqla real tədris materiallarının internetdən istifadə etməklə geniş bir sahəni əhatə edir. Bu baxımdan, müasir dərs modelində yeni təlim texnologiyaları xüsusi əhəmiyyət kəsb edir. Xarici dil öyrənmə prosesində şagirdlərin orijinal mətnləri sərbəst və aydın şəkildə dinləməsi, oxuması məhz innovativ texnologiyaların tədrisə tətbiqi hesabına baş verir. Qeyd edək ki, belə təlim internet tədris mətnlərinin xüsusiyyətlərini yenidən öyrənməyə imkan verir. Bunun nəticəsində şagirdlərin formalaşdırdığı bilik, bacarıq və şəxsiyyət keyfiyyətlərinin xüsusiyyətləri və öyrənilən dilin mədəniyyətinin təhlili hər iki dilin inkişaf etdirilməsini zəruri edir. Qeyd edək ki, dissertasiyada alman dilinin öyrənilməsinə və eləcə də texniki sistemlər (internet saytları, media) ilə bağlı məlumatlardan geniş bəhs olunur. Həmçinin alman dilini inkişaf etdirmək üçün əməkdaşlıq çərçivəsində layihələr hazırlamaq, ünsiyyət əlaqələri və dili öyrənilən insanlarla münasibətlər yaratmaq üçün müxtəlif iş formalarından istifadə etmək müasir dərsin xüsusiyyətlərinə aid edilir. Hər hansı bir tədris materialının təqdimatı üçün internet təlim vasitəsi bu prosesdə mühüm rol oynayır. Bu təqdimatlar informasiya və əyləncə materiallarını, mədəniyyət və incəsənət xəbərlərini, ictimai və görməli məkanları və s. təqdim etmək üçün istifadə olunur və dilin kommunikativ öyrənilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Eksperiment müddətində təqdim olunan dil nümunələrinə əsaslanaraq aşağıdakı statistik nəticələri qeydə almışıq:

- ✓ kommunikasiya layihələri tədqiqat laboratoriyalarının yaradılmasına imkan verir;
- ✓ məktəblilər, birgə tədqiqat sahələrini əhəmiyyətli dərəcədə genişləndirmək və yaradıcılıq işləri və eyni zamanda mədəniyyətin xüsusiyyətlərini nəzərə alır;
- ✓ xarici dil biliklərinin mənimsənilməsi funksiyası - ünsiyyət vasitəsi kimi istifadə edilir.

Eksperimental işin əsas vəzifəsi internet vasitələrinin tədris prosesinə tətbiqinin məqsədəuyğunluğu və xarici dillərin tədrisi üzrə layihələrin əsaslandırılması idi. Təcrübənin əsasını Dünya məktəbinin 5-ci sinif şagirdləri təşkil edirdi. Təcrübədə ümumilikdə 32 şagird iştirak edib. 15 şagird eksperimental və 17 nəzarət qrupunda. Təcrübə iki istiqamətdə aparılıb: ənənəvi tədris şəraitində nəzarət qrupu və telekommunikasiya layihələrinin eksperimental qrupda tətbiqinin əsasında. Effektivliyin öyrənilməsi üzrə eksperimental iş alman dilinin mənimsənilməsi üçün telekommunikasiya layihələrindən istifadədə aşağıdakı addımları əhatə edir:

1. Təsdiqləmə mərhələsi

Bu mərhələdə şagird motivasiyası səviyyəsini müəyyən etmək üçün sorğu keçirilib. Sorğunun nəticələri göstərdi ki, eksperimental və nəzarət qrupu aşağı səviyyədə üstünlük təşkil edir:

a) alman dilini öyrənmək üçün motivasiya ( 68% eks.qr.və 59% nəz.qr.).
b) hər iki qrupdakı şagirdlərin yalnız 16%-nin motivasiyası yüksəkdir (hər sinifdə cəmi 4 şagird).

2. Formativ mərhələ

Bu mərhələdə eksperimental qrupdakı şagirdlərlə layihə işi aparılıb. Layihənin mövzuları müəyyən edilib, qrup işi 6 şagirddən ibarət iki mini qrupa bölünərək, layihə tərəfdaşları ilə tanışlıq (şagirdlər və müəllimlər) müəyyən edilmiş və layihə üzərində iş aparılıb, nəticələr çıxarılıb.

3. Nəzarət mərhələsi

Bu mərhələdə alman dilini öyrənməyə çalışan şagirdlərin motivasiya səviyyəsini müəyyən etmək üçün ikinci sorğu keçirilmişdir. Əldə edilən nəticələrin təhlili göstərdi ki, internet tədris materiallarından səmərəli istifadə müxtəlif beynəlxalq layihələrin yaranmasına səbəb olur. Eksperimental qrupdakı şagirdlərin motivasiya səviyyəsinin artırılması tədqiqat prosesində öz əhəmiyyətini göstərdi. Bundan əlavə, bacarıqların formalaşmasında və inkişafında müsbət meyillər şifahi nitqi ilə üzə çıxdı. Beləliklə, eksperimentin nəticələri, eləcə də əvvəllər məlumatların müqayisəsi təcrübə zamanı təsdiq edildi və tədqiqatın əvvəlində qarşıya qoyulan məqsədə nail olundu. Eksperiment zamanı şagirdlərin internet resurslarından istifadə

etməklə idrak motivasiyasının səviyyəsini və alman dilini öyrənməyin yollarını sorğu nəticəsində əldə etdiyimiz cavablara əsasən sistemləşdirə bildik:

1. Alman dili dərslərini maraqla dinləyirəm.
2. Mövzu ilə bağlı suallara cavab verməyi xoşlayıram.
3. Ev tapşırığını maraqla yerinə yetirirəm.
4. Alman dili dərslərində problemləri müzakirə etməyi xoşlayıram.
5. Alman dili dərsində yeni məlumatları internetdən öyrənməyə maraqlıyam.
6. Layihə iş forması mənim üçün maraqlıdır.
7. İş prosesində qrup üzvlərinin dəstəyini hiss edirəm.
8. Alman dilini internet proqramları ilə öyrənə bilirəm, çünki müstəqil öyrənmək mənim üçün asandır.
9. Qrupla işdə öz biliyimi göstərə bilirəm.
10. Alman dili dərslərində müzakirə olunan problemlər mənim üçün maraqlıdır, onları müzakirə etmək istəyirəm.
11. Müzakirə olunan problemə münasibətimi bildirməyə çalışıram.
12. Müzakirə olunan məsələlərdə qrupun ən yaxşısı olmasını istəyirəm.
13. Müzakirədə iştirak edərək həmsöhbətlərə suallar verirəm.
14. Problemin həllini təklif edə bilərəm.
15. Kompüter bacarığının gələcəkdə mənim üçün faydalı olacağını düşünürəm.
16. Yeni bilikləri özüm əldə etməyi xoşlayıram.
17. Alman dilində ünsiyyət qurmaq istəyini hiss edirəm.
18. Alman dili dərslərində öz biliyimə əminəm.
19. Müxtəlif problemlərin müzakirəsi dərslərini xoşlayıram.
20. Alman dilini bilmək mənim üçün önəmlidir.
21. Rəylər fərqli olsa da, öz fikrimi başqalarına bildirirəm.

Xarici dillərin tədrisi üçün yeni təlim mühitinin formalaşması bütün sahələrdə beynəlxalq əlaqələrin genişləndirilməsi fəaliyyətlərinin yaradılmasına, kommunikasiya texnologiyalarının sürətli inkişafı və informasiyaya daha sərbəst çıxışa səbəb olur. Müstəqil olaraq internet tədris materiallarının seçilməsi məlumatları düzgün təhlil etmək və müxtəlif üsullardan istifadə etməklə şagirdlərin

idrak fəaliyyətini inkişaf etdirmək biliyin zəruri olanı məqsədlərini tapmaq bacarığıdır. Beynəlxalq təcrübədə kommunikasiya vasitələri adətən belə başa düşülürdü - texniki vasitələrin köməyi ilə məlumatların müəyyən məsafəyə ötürülməsi vasitələri (telefon, teleqraf, radio, televiziya və s.). Müasir tədrisdə isə kommunikasiyanın tətbiqi dörd mərhələdən keçir:

a) təhsil sistemlərinin informasiya təminatı (verilənlər bazası, bilik bazaları, virtual kitabxanalar, virtual multimedia klubları, muzeylər və s. şəbəkələrdə yaradılması);

b) müxtəlif bilik sahələrində birgə layihə fəaliyyəti: məktəblilər, tələbələr, müəllimlər, tədqiqatçılar;

c) müxtəlif hədəf sahələrində distant təhsil, müxtəlif forma və növlər;

d) geniş çeşiddə şəbəkə istifadəçilərinin pulsuz əlaqələri və təhsilə aid suallar.

Tədris prosesinin müəyyən komponentləri, məzmunu, pedaqoji sistem üsulları, təşkilati formaları və tədris vəsaitləri məqsədlər kimi qəbul edilməlidir. Təhsil konsepsiyasında funksional sistemin komponentləri arasında əlaqələr qurulur və müəyyən edilir ki, məqsəd öyrənmə deyil, ilk növbədə, həyata keçirməkdir. Şagirdlərin özünü inkişaf etdirmə fəaliyyət növləri müxtəlif cür - fərdi, cütlər, qruplar, konfranslar və məlumat s. olmalıdır. Tədrisdə müxtəlif kompüter texnologiyalarından istifadə kimi müəyyən fəaliyyətlər və didaktik-psixoloji meyillər müzakirənin dili ilə kommunikasiyanı inkişaf etdirir və ya layihə işləri ilə dilin formalaşması əlaqələndirilir.

Eksperiment tədrisin hər üç mərhələsində əldə etdiyimiz nəticələrə görə dilin mənimsənilməsi müddətində şagirdlərin marağı müxtəlif şəbəkə proqramlarından, animasiyadan, multimedia alətlərindən istifadə etməyə imkan verir. Müxtəlif yaşda olan şagirdlərin telekonfranslarda, sosial söhbətlərdə, o cümlədən, müəllimlərin onlayn söhbətlərində iştirakı, müxtəlif ölkələrdən olan istifadəçilərin (adətən belə söhbətlər xarici dildə aparılır) əlavə təhlilini və real nitq şəbəkəsinin yeni əlaqələrini məlumatlandırmaq üçün maraqlı, aydın və faydalı təcrübələrin aparılmasını zəruri hesab edir. Dərsdə müzakirələrin gedişində digər mədəniyyətin maraqlı elementləri

ilə tanışlıq üstünlük təşkil edir və yalnız bu prosesdə təsirli məlumat mübadiləsi mühümdür.

İnternetdən istifadə edərək müxtəlif şəbəkələr ilə öyrənilən dil haqqında istənilən məlumatı əldə etmək olar. Tədris prosesində alman dilindən istifadənin öyrədilməsi zamanı ən təsirli olanları vurğulamaq lazımdır:

1. Ana dili olan həmyaşıdları ilə sosial e-poçt yazışmaları, eləcə də hər bir xarici dil məlumatını başqa ölkələrdə xarici elektron kimi öyrənənlər (müasir, canlı bir dil, dialoq, məlumatın operativliyi, imkanı əks etdirən tədqiqatlar fərqli bir mədəniyyətə malikdir, bilik əldə etmək üçün başlanğıcdan öyrənmə);
2. Beynəlxalq layihələrdə kommunikativ elementlərin iştirakı (yaradıcı dil bacarıqlarının səviyyəsinin yüksəldilməsi, şagirdin ümumi dünyagörüşünün inkişafı, layihənin xüsusi mənimsənilməsi, müəyyən bir bilik layihəsinin həyata keçirilməsi üçün zəruri olan);
3. Mətn və səs fraqmentinin söhbətlərə aydın şəkildə tətbiqi;
4. Telekommunikasiya olimpiadalarında iştirak, maraqlı testlər, müsabiqələr (biliyin obyektiv layihə qiymətləndirilməsi, özünütəsdiq, layihəyə hazırlıq imtahanları və olimpiadalarda iştirak boşluqları). Material hazır olduqda biz tapşırıqlarımıza bənzər, öyrənənlərin real vəziyyətlərinə xas ola bilən əksər şagirdlərdə yaradıcı sosial yoxluğu müşahidə edirik, mənfi psixoloji anların və qorxu hisslərininin şahidi oluruq;
5. İşin yaradıcı nəticələrinin hətta tez bir zamanda dərc edilməsi imkanı şagirdlərin özünü təsdiq edir (motivasiyanın yaradılmasını artırmaq, buna görə də, yeniyetmələrin lüğətdən istifadə etməsi üçün məktəbdaxili imkanlar lazımdır);
6. Müəllim üçün tələb olunan - çoxlu aydın dil və ölkəyə aid materialların, layihə üçün ən son tədris texnologiyalarının təsvirinin mümkünlüyünü ətraflı müzakirə etməkdir.

Öz dil səviyyələrini daim təkmilləşdirmək üçün öyrənməyi, məktəbdə müəllimlərin məsləhətləri, orijinal tədris proqram kompleksləri, xarici təcrübə mübadiləsində iştirak, auditoriya ilə müəllimlər arasında xarici dildə ünsiyyət qurmaq

üçün razılaşmaların tələbləri dil əldə etməkdir. O cümlədən, beynəlxalq təcrübələrə əsaslanaraq indiki distant təhsilin əsas hər bir anlayışının məqsədi xarici dildə internet tədris materiallarının aşağıdakılardan ibarət olmasıdır:

1. Xarici dilin fəal öyrədilməsinin ümumi əsaslarından biri uzaqdan şəxsiyyətlərarası ünsiyyətdir ki, hər bir şagirdin nitqini bu formada gizlətmək üçün müstəqil təcrübə mənimsədiyi aktiv fəaliyyətlərdir.
2. Şagird işinin fəaliyyəti interaktiv proqram əsasında qurulur.
3. Müstəqil fəaliyyət üçün şagirdlərin çıxışı lazımdır. Müəllimin istifadə etdiyi təlimlə bağlı nümunə kimi effektiv əks etdirici bunu təmin edən özünə nəzarət, qruplar və müəllimlə yeni əlaqə aydın olaraq müəllim rəyinə uyğunlaşma imkanı verir.
4. Dərs üçün müxtəlif yanaşmalar arzuolunandır, o cümlədən, prosesdə şagirdin tərəfdaşların köməyi ilə öyrənmək, fənnin tədris aspektlərini bir araya gətirmək və belə dərslər müəllim tərəfindən qəbul edilir və s.

Yoxlama tədris prosesində bir çox kommunikasiya beynəlxalq layihələri real informasiya dil mühiti yaratmaq və iştirak etmək imkanı verir. Digər formalaşdırma üsulları və istifadə edilən texniki vasitələr əvvəllər belə müzakirə şəraitinin aktiv yaradılmasına imkan vermirdi. Ona görə də, məktəbdaxili müəllimlər özlərini ən şərti şəkildə dərslərlə məhdudlaşdırmağa məcbur olurdular: danışma məşqləri və situasiyalar, hər hansı bir vəziyyətə keyfiyyətli uyğunlaşma. Onların köməyi ilə xarici dil proqramının tələbləri üçün dərsdənkənar motivasiya layihəsi yaratmaq olar, lakin şagird üçün bu mümkün deyil. Dərslərdə təşkil olunan beynəlxalq ümumi layihələr internet şəbəkəsində bəzi müxtəlif problemlərin hər birinə əsaslanır. Onların araşdırılması tərəfdaşlar üçün eyni dərəcədə düzgün, maraqlı və mənalı yaradıcılıq, nitq üçün əsl diqqətli dil yaradır. Layihə üzərində işləməyi öyrənən iştirakçılar düşünməyi öyrənməklə, araşdırma, müvafiq məlumatların toplanması, diqqətli müzakirə özü və tərəfdaşları arasında məşğul olurlar. Layihə üçün əsas meyar dilin həqiqətən birbaşa funksiyaya hazırlanmasında çıxış edərək - bu vasitələrin və layihə ideyalarının formalaşdırılmasının adlandırılmasıdır. Bu əsl dil öyrənmə mühitidir və tədqiq olunan problemə deyil, həm də bir şagirdin öz-özünə xarici dil fəaliyyəti,

başqa mədəniyyətə inteqrasiyadır. Birgə tədqiq etmək imkanı problemdə istənilən mövzunu əks etdirə bilər: məktəbdaxili, ekoloji, siyasi, yaradıcılıq, tarixi, regionşünaslıq, linqvistik nəticələr və s. Ən əsası, müxtəlif iştirakçıların müəyyən bir icmaya xas ünsiyyət üçün qəbul edilmiş xarici dil məqsədi layihə iştirakçıları tərəfindən müzakirə edilir, araşdırılır və qərara alınır, ən müxtəlif imkanlar və internet dil resursları müəyyənləşir. Sinif daxili lazımi məlumatın axtarılması, məlumat təhlili iştirakçıları virtual məkanlara, kitabxanalara, məlumat saxlama bazalarına, virtual pəncərələrə və muzeylərə müxtəlif təhsil serverlərinə gətirib çıxarır. Təqdim edilən müasir tədrisin məqsədi şagirdləri real iş ortaqları ilə canlı ünsiyyəti iştirakçılarına yönəldir, telekonfrans, söhbət texnologiyaları üçün e-poçt imkanları tələb olunur.

Hər bir layihə təlimi bu və ya digərinin birgə material hazırlamaq ehtiyacı, hər bir iştirakçının ən böyük auditoriyaya təqdim etdiyi bacarıq (sinifdə, məktəbdə) və ya bu məqsədlə xüsusi yaradılmış keyfiyyətlər üzrə veb sayıtları, internet materialları ola bilər. Müasir həyat tərzi və ritmi nəzərə alınaraq, öyrənmə üçün motivasiyaedici amil kimi informasiya texnologiyalarından istifadə edərək layihə texnologiyasının xüsusi yer tutması tamamilə təbiidir. Layihə texnologiyası yüksək ünsiyyət qabiliyyəti ilə xarakterizə olunur, şagirdlərin öz fikirlərini, hisslərini ifadə etmələrini, real fəaliyyətlərdə fəal iştirakını, öyrənmədə irəliləməyə görə şəxsi məsuliyyətini qəbul etməsini əhatə edir. Bu, sözlü ünsiyyətin digər fəaliyyətlərin (oyunlar, səyahət, ziyarət etmə və s.) intellektual və emosional kontekstində öyrənilən, məktəblilər tərəfindən müstəqil olaraq planlaşdırılan və həyata keçirilən bir işdir. Yoxlama eksperimentin aparılmasında İKT-nin tədris prosesinə daxil edilməsi ilə müəllimə verilən aşağıdakı imkanları müşahidə etdik:

- ✓ tədris prosesini fəal təlim və idrak fəaliyyətləri ilə təşkil etmək;
- ✓ şagirdlərin müstəqil işlərinə nəzarət etmək;
- ✓ intertnetdən dərsin mərhələlərində yeni materialın hazırlanmasında, izahında istifadə etmək.

Bizi maraqlandıran son mərhələdə təlim materiallarının tədris prosesində tətbiqinin səmərəli yolları və onların didaktik tapşırıqlarla təkmilləşdirilməsi

prosesidir. Belə ki, internet məlumat mənbəyi olaraq internet tədris materiallarının seçilməsi, yığılması və işləmə imkanını təmin edən, həmçinin məlumatı ötürmə və saxlama vasitəsi hesab edilə bilər. Tədris prosesində İKT-nin tətbiqi tədris materialının keyfiyyətini artıra və tədris effektini artıra bilər. Hər hansı bir yeni texnologiya pedaqoji informasiya texnologiyasıdır, çünki texnoloji təlim prosesinin əsasını məlumatın qəbulu və tətbiqi təşkil edir. Tədqiqat prosesində internet tədris materiallarının şagirdlərin xarici dilə yiyələnməsində əsl öyrənmə sevinci bəxş etdiyini, onların yeni bir mədəniyyətlə tanış olduğunu müşahidə etdik.

# NƏTİCƏ

Müasir təlim texnologiyalarından istifadə etməklə tədris materialları (müəllim hazırlığı, əməkdaşlıq, dərsin təşkili metodikası, mümkün məlumatlardan istifadə texnologiyaları, internet resursları) şəxsin formalaşmasına kömək edə bilər. Məntiqyönümlü öyrənmə yanaşması fərdiləşdirməni təmin edir və öyrənmənin yeni üsulları şagirdlərdə qabiliyyətlərin nəzərə alınmasını, onların öyrənmə səviyyəsinin olmasını, dilə meylin yaranmasını və s. inkişaf etdirir. Fənnin məzmununun aparıcı komponenti olan  xarici dil müəlliminin dərsdə məqsədi nitq fəaliyyətinin müxtəlif növlərini öyrətməkdir: danışma, dinləmə, oxuma və yazı. Təlim prosesində məktəblilər üçün müxtəlif növ şəbəkələrdən istifadə etməklə tədris materiallarının seçilməsi və onların nitq fəaliyyətinin təmin edilməsində tətbiqi lazımdır. Nitqin hər hansı bir forması əsasında bacarıqların yaradılması mümkündür.

Şagirdlərin dilin öyrənilməsində əsas fəaliyyəti eşitmə-hərəkət bacarıqlarıdır. Buna görə dillərin öyrədilməsi prosesi şifahi məşqlərə aid edilərək nitq fəaliyyəti ilə canlı ünsiyyətdə məlumatın əldə edilməsinə nail ola bilər. Nitq fəaliyyətinin formalaşmasında kompüter proqramları və CD-ROM nə qədər interaktiv olsalar da, onlar yalnız əlaqəni təmin edir. Kompüter kommunikasiya vasitəsi olub dilin real tərəfdaşla dialoqa girməsinə imkan verir. Öyrənmə zamanı internetin informasiya resurslarının imkanlarından istifadəni məqsədəuyğun hesab edirik:

a) təlim proqramından istifadə edərək internet tədris materiallarının istifadəçilərə inteqrasiyası;
b) layihə daxilində xüsusi məlumatı axtarmaq üçün müstəqil olaraq tətbiq olunan metodun köməyi ilə bacarıqların inkişafı mümkündür;
c) öz-özünə öyrənməklə inkişaf ola bilər, belə bilik öyrənmə vasitələri boşluqları doldurur;
d) fərdi iş layihəsinin və imtahanın hazırlanması;
e) materialın uzaqdan sistemli şəkildə təkrarlanması müəllim tərəfindən müzakirə olunacaq.

Mövzunun yaradıcı xüsusiyyətlərinə əsaslanaraq, müəllim didaktik tədrisi və internet şəbəkəsinin müxtəlif funksiyalarını bilməklə, onun əməliyyat imkanları və resurslarını, məlumatı, dərsdə hansı didaktik tapşırıqları tez tətbiq etmək olar, bu və ya digər layihə xidməti, yaradıcı veb resursları ən çox müəyyən edilə bilər. İnternetin imkanlarından istifadə edərkən, videokamera ilə kompüter avadanlıqlarının işlədilməsinə imkan verəcək videokonfrans tərəfdaşları müəyyən qədər bu işləri nəzərə alır. Belə ki, birgə real məsələlərin internetlə mümkünlüyünü dinamik şəkildə nəzərə almaq lazımdır. Müzakirə edəcəyimiz internetin real imkanları arasında hər hansı bir təminat daxildir - mətn, audio materiallar, dinamika və ya statik məlumatın qrafiki. İnternet sayəsində müəllim belə bir dərsdən əvvəl məktəbin media kitabxanasına daxil ola bilər və ya kompüterdən bu və ya digər tədris üçün orijinal - ana dili danışanların öyrəndiyi mövzuda oxumağın inkişafı üçün materialları aydın şəkildə seçə bilər. Müzakirə və yazı, səsli məlumat (dil daşıyıcılarının müxtəlif mövzularda maraqlı təqdimatları) ən aktiv və müxtəlif məsələlər üzrə dil layihələrin tələb etdiyi səviyyələri təklif edir.

İnternet şifahi bacarıqların formalaşması üçün unikal imkan yaradır. İnternet resurslarından istifadə edərək layihə tərəfdaşlarından e-poçtlarla alınan mətnlərin müzakirəsi yaxud bu və ya digər problemli məsələ ilə bağlı əldə edilən məlumatların müzakirəsini aparmaq mümkündür. Həm şifahi, həm də yazılı nitqdə beynəlxalq mesajların linqvistik təhlili öz frazeoloji vahidlərini, reallıqlarını, məlumatlarını ehtiva edən, dilin inkişafı ilə bağlı ana dilində danışanların ifadələri dilin xüsusiyyətlərini əks etdirir:

- ✓ xalqın mədəniyyətində deyimlər, atalar sözləri, neologizmlər;
- ✓ tədqiq olunan dil ölkələri, virtual kitabxanalarla iş üsulları və nəticədə müəlliflərin bədii yaradıcılıq əsərlərindən istifadə;
- ✓ elektron qrammatik materiallardan istifadə etmək, onlarda təklif olunan məşğələlər, habelə arayış kitablarının leksik formalaşması, lüğətlər, ölkəyə aid materialların arayış kitabları.

İnternetin əsas əhəmiyyəti məlumatların həmişə asanlıqla əldə edilməsidir. Həmçinin real dil materiallarında ən yaradıcı və aktual məlumatlardan istifadə edə və

ya şərtləri seçə biləcəyimiz müəyyən bir problem üzrə xüsusi bacarıqlar inkişaf etdirməkdir. Təlim zamanı verilən internet materiallarının işlənməsinin nəticələrindən istifadə etmək xüsusilə maraqlıdır. Müəllim layihə üçün müxtəlif şəbəkələrdə məlumat axtarışı edə bilər və hətta ziddiyyətli problemlər tabe olduğu məsələ ilə bağlı məsafədən öz həllini tapır. Belə prosesdə müzakirəyə, araşdırmaya qəbul edilən müddət deyilir. Müəllim kiçik qruplar üçün uyğun bir təlim təklif edir ki, şagirdlərə tədris materialları, müzakirə olunan problemə uyğun orijinal məlumatı seçsin. Sərbəst şəkildə  layihə işində prosesi nəzərə almaq, rəhbərlik etmək və ya əksinə, etiraz etmək bu, əlbəttə ki, mübahisə edilir, bunun üçün iştirakçılara faktlar, məlumatlar lazımdır. Üstəlik, belə bir problem üzərində işləyən hər qrup fərqlidir, müzakirə problemi üçün uyğun materialın kombinasiyasını təklif etmək olar.

Tədrisdə eyni iş dinləmə ilə əlaqədar həyata keçirilə bilər. Biz başqa mənbələrdən, məsələn, CD-lərdəki proqramlardan yaradıcı şəkildə istifadə edə bilərik. Müəllim və şagirdlərin dərsin məqsədindən asılı olaraq çatdan istifadə (çat, istifadəçilərin pulsuz məsafədən yaradıcı söhbətidir), telekonfrans təlimi və ya e-poçt bacarıqları, sinifdən kənar ana dilli danışanların fikirlərini əldə etmək üçün birləşdirilmiş, yaradıcı öyrənilən dil, müəyyən bir problemin müzakirəsi aydın, müxtəlif fərqli məqamı və s. etməsi mümkündür. Belə ki, hər hansı bir layihənin diqqətlə həyata keçirilməsi üzərində işləmək prosesində ən çox, fərqli bir amil, müəllimin internetdən götürülmüş materiallardan istifadə etmə imkanının əldə etməsidir.  Tədqiqat prosesində internet tədris materiallarından səmərəli istifadə yolları geniş araşdırıldı və öz həllini mövzuda aydın əks etdirdi.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində**

1. Axundova Q.V. Alman dilinin tədrisində yuxarı kurs tələbələrin şifahi nitq bacarıqlarının təkmilləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarından istifadə: dissertasiya, Bakı, 2011, 180s.
2. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003, 282 s.
3. Seyidov S.И., Həmzəyev M.Ə. Psixologiya (yaş və pedaqoji psixologiya məsələləri). Bakı: Nurlan, 2007, 700 s.

**Rus dilində**

4. Азимов Э.Г. Методическое руководство для преподавателей по использованию дистанционных технологий в обучении русскому языку как иностранному. М.: МАКС Пресс, 2004, 112 с.
5. Азимов Э.Г., Вильшинецкая Е.Н. Материалы Интернета на уроке английского языка// Иностр. языки в школе. 2001, № 1.
6. Алиев А.Г. Теоретико-прикладные аспекты информатизации гуманитарных отраслей. Баку: ЭЛМ, 2006, 474 с.
7. Алхазишвили А.А. Основы овладения устной иностранной речью. М.: Просвещение, 2004, 334 с.
8. Андреев Н.Д. Статистико–комбинаторные методы в теоретическом и прикладном языкознании. Л.: Наука, 1967, 403 с.
9. Аносова Н.Э. Обучающие компьютерные программы-новые возможности преподавания иностранного языка// Вопросы филологии, 1995, № 1, с. 23-29
10. Баскаков Н.А., Лингвистические аспекты преподавания языка. М.: Наука, 1983, 241 с.
11. Башмаков А.И., Башмаков И.А. Разработка компьютерных учебниках и обучающих систем. М.: ИИД "Филинъ", 2003, 616 с.
12. Бим И.Л. Методика обучения иностранным языкам как наука и проблемы школьного учебника. М.: Просвещение, 2002, 278 с.

13. Бовтенко М.А. Компьютерная лингводидактика: Учебное пособие. М.: Флинта, Наука, 2005, 215 с.
14. Ван Дейк Т.А. Язык. Познание. Коммуникация. М.: БГК Им. И.А.Бодуэна Де Куртенэ, 2000, 310 с.
15. Верещагин Е.М., Костомаров В.Г. Язык и культура. М.: МГУ, 2001, 232 с.
16. Выготский Л.С. Педагогическая психология. М.: Педагогика, 1991, 479 с.
17. Власов Е.А., Юдина Т.Ф., Авраменко О.Г., Шилов А.В. Компьютеры в обучении языку: проблемы и решения. М.: Русский язык, 1990, 80 с.
18. Гергей Т., Машбиц Е.Н. Психолого-педагогические проблемы эффективного применения компьютера в учебном процессе // Вопросы психологии, 1985, № 3, с. 41- 49
19. Гречихин А.А., Древс Ю.Г. Типология, стандартизация, компьютеризация: Учебно-методическое пособие. М.: Наука, 2000, 367 с.
20. Гурчив П.Б. Основы обучения устной речи на языковых факультетах. Часть 2. Владимир: 1974, 176 с.
21. Гусейнзаде Г.Д. Обучение речевой коммуникации на иностранном языке. Баку: Мутарджим, 2001, 346 с.
22. Девкин В.Д. Немецкая разговорная речь. Синтаксис и лексика. М.: Международные отношения, 1979, с. 256
23. Демушкин А.С. Компьютерные обучающие программы // Информатика и образование, 1995, № 3, с. 43
24. Дистервег Ф.А. Дидактика: Учебное пособие. М.: Наука, 2005, 601 с.
25. Жинкин Н.И. Речь как проводник информации. М.: Наука, 1982, 159 с.
26. Зимняя И.А. Психологические аспекты обучения говорению на иностранном языке. М.: Просвещение 1985, 305 с.
27. Зиндер Л.Р. Общая фонетика. М.: Высшая школа, 1979, 275 с.
28. Кушниренко А.Г., Леонов А.Г., Кузьменко М.А. и др. Что такое Интернет? Информационные и коммуникационные технологии в образовании // Информатика и образование, 1998, № 5, с. 7-15

29.Лаутербах Р., Фрей К. Программное обеспечение процесса обучения // Перспективы. Вопросы образования, 1988, № 3, с. 45-56

30.Леонтьев А.А. Язык и речевая деятельность в общей и педагогической психологии. М: РАО/МПСИ, 2001, 127 с.

31.Леонтьев А.А. Психология общения. М.: Смысл, 2004, 456 с.

32.Лурия А.Р. Основные проблемы нейролингвистики. М.: Изд-во МГУ, 1975, 252 с.

33.Новиков Л.А. Лингвистика и его значение для преподавания иностранного языка. М.: Изд-во МГУ, 1976, 205 с.

34.Новые педагогические информационные технологии в системе образования / Под. ред. Е.С.Полат. М.: Педагогика, 2000, 357 с.

35.Макаревич И.Г. Использование Интернета на уроке немецкого языка// Иностр. языки в школе. – 2001. - № 5.

36.Макаревич И.Г. Интернет на уроках немецкого языка// Иностр. языки в школе. – 2004. - № 6.

37.Общая методика обучения иностранным языкам в средней школе/ Под ред. А.А. Миролюбова, И.В. Рахманова, В.С. Цетлин. М.: Просвещение,2003,504 с.

38.Пальмер Г. Устный метод обучения иностранным языкам. М.: Учпедгиз, 1960, 163 с.

39.Пассов Е.И. Коммуникативный метод обучения иностранному говорению. М.: Просвещение, 1991, 142 с.

40.Пассов Е.И., Шарипова З.Г. Коммуникативный метод обучения иноязычному говорению. М.: Просвещение, 1991, 222 с.

41.Полат Е.С. Интернет на уроках иностранного языка// Иностр. языки в школе. 2001, № 2.

42.Пиотровская К.Р. Современная компьютерная лингводидактика// Научно-техническое информация, 1991, № 4, с. 26-32

43.Рахманов И.В. Обучение устной речи на иностранном языке. М.: Высшая школа, 2004, 278 с.

44. Роберт И.В. Современные информационные технологии в образовании: дидактические проблемы; перспективы использования. М.: Школа Пресс, 1994, 205 с.
45. Рожкова Г.И. К лингвистическим основам методики преподавания иностранного языка. М.: МГУ, 1977, 256 с.
46. Сорокин Ю.А. Психолингвистические аспекты изучения текста. М.: Наука, 1985, 168 с.
47. Узнадзе Д.Н. Психологические исследования. М.: Наука, 1966, 413 с.
48. Фадеев С.В. ЭВМ в преподавании русского языка как иностранного. М.: Наука, 1990, 134 с.
49. Шатилов Ф. Методика обучения немецкому языку в средней школе: Учебное пособие для студентов пед. институтов. М.: Просвещение,1986,223 с.
50. Шубин Э.П. Языковая коммуникация и обучение иностранным языкам. М.: Просвещение, 2002, 232 с.
51. Щерба Л.В. Языковая система и речевая деятельность. Л.:Наука,1974,428 с.

**İngilis dilində**

52. Buell J. Constructing education: Computers and the transformation of learning// CALL Journal, 1996-1997, № 7, p. 43-51
53. Davies G. Introduction to multimedia CALL/ Information and Communications Technology for Language Teachers (ICT4LT). Slough: Thames Valley University, 2011, http://www.ict4lt.org/en/en_mod2-2.htm
54. Davies G., Higgins J. Using computers in language learning: a teacher's guide. London: CILT, 1985, 168 p.
55. Dudeney G. The Internet and the Language Classroom. Cambridge: Cambridge University Press, 2000, 181 p.
56. Fuerstenberg G. Videodisc, Software, Teacher's Manual and Student Activities Workbook. Yale: University Press, 1993, 95 p.

57.Gagne R., Wager W. Planning and Authoring Computer Assisted Instruction Lessons// Educational Technology, 1981, № 9, p. 34- 47

58.Hanson Smith E., Rilling S. Learning languages through technology. Alexandria: TESOL Publications, 2007, 160 p.

59.Hardisty D., Windeatt S., Eastment D. The Internet (Resource Books for Teachers). Oxford: Oxford University Press, 1989, 347 p.

60.Higgins J., John T. Computer in Language Learning // CALICO Journal, Glasgow, 1984, 74 p.

61.Hubbard P. Computer-assisted language learning / Volumes I-IV, London and New York: Routledge, 2009, p. 43-54

62.Jokes C., Fortescue S. Using computers in the language classroom. Harlow: Longman, 1987, 353 p.

63.Matthews C. Intelligent Computer Assisted Language Learning as cognitive science: the choice of syntactic frameworks for language tutoring // Journal of Artificial Intelligence in Education, 1994, № 5, p. 533-56

64.Thompson J., Chesters G. Call for All // Computers and Education, 1992, № 3, p. 96-109

65.Warschauer M., Healey D. Computers and language learning: an overview. Tokyo: Logos International, 1998, p. 3-20

**Alman dilində**

66.Anderson J. Kognitive Psychologie. Eine Einführung. Heidelberg: Francke, 1989, 118 S.

67.Barbara B. Visualisierung in Lehrwerken für DaF. Ein Beitrag zur Gedächtnisschulung/ Gedächtnis und Sprachlernen, Regensburg: Fachverband Deutsch als Fremdsprache, 1997, S. 58-72

68.Bausch K.R., Christ H., Krumm H.J. Handbuch Fremdsprachenunterricht. 3. Aufl., Tübingen: Francke, 1995, 585 S.

69.Bernd K., Neuner G. Zur Analyse, Begutachtung und Entwicklung von Lehrwerken für den fremdsprachlichen Deutschunterricht. München: Langenscheidt, 1998, 254 S.

70.Blumstengel A. Entwicklung hypermedialer Lernsysteme. Berlin: Hueber, 1998, 345 S.

71.Doelker C. Multimedia ist Multicode/ Reflexionen zu Aspekten neuer Medien. Konstanz: Medien Verlagsgesellschaft, 1992, S. 237-246

72.Engel U. Mannheimer Gutachten zu ausgewählten Lehrwerken Deutsch als Fremdsprache. Band. 1., 3. Aufl. Heidelberg: Julius Groos, 1978, 305 S.

73.Funk H. Lehrwerke und andere neue Medien. Zur Integration rechnergestützter Verfahren in den Unterrichtsalltag/ Fremdsprache Deutsch. Zeitschrift für die Praxis des Deutschunterrichts. Hueber Verlag, 2000, S. 5-12

74.Foerster H., Glasersfeld E. Wie wir uns empfinden. Eine Autobiographie des radikalen Konstruktivismus. Heidelberg: Hueber, 1999, 244 S.

75.Habermas J. Vorbereitende Bemerkungen zu einer Theorie der kommunikativen Kompetenz/ Theorie der Gesellschaft oder Soziotechnologie. Frankfurt am Main: Schmidt, 1971, S. 387-395

76.Heinemann M., Heinemann W. Grundlagen zur Textlinguistik. Interaktion - Text - Diskurs. Tübingen: Niemeyer, 2002, 142 S.

77.Hess H.W. DaF-Software in der Anwendung - "Alter Quark noch breiter"? / Info DaF, 1998, № 1, S. 54-71

78.Maijala M. Was ein Lehrwerk können muss – Thesen und Empfehlungen zu Potenzialen und Grenzen des Lehrwerks im Unterricht Deutsch als Fremdsprache// Info DaF, 2007, № 6, S. 543-562

79.Reinmann G. Blended Learning in der Lehrerbildung. Grundlagen für die Konzeption innovativer Lernumgebungen. Lengerich: Pabst Science Publishers, 2005, 180 S.

80.Rüschoff B. Elektronische Medien/ Handbuch Fremdsprachenunterricht. Tübingen, Basel: Francke, 1995, S. 320-323

81.Salzmann J. Möglichkeiten des computergestützten Sprachlernens. http://angli02.kgw.tu-berlin.de/call/Salzmann/article/Stexartk.htm

82.Schulmeister R. Lernplattformen für das virtuelle Lernen. Evaluation und Didaktik. München: Oldenbourg Wissenschaftsverlag, 2005, 367 S.

83. Zander Sch, R. Lernwege suchen. Unterrichtsformen eigenaktiven und kooperativen Lernens// Computer und Unterricht, 2005, № 57, S. 6-10
84. Weidenmann B. Multicodierung und Multimodalität im Lernprozess. Weinheim: Verlagsgruppe Beltz, Psychologische Verlags Union, 2002, 345 S.
85. Wendt M. Konstruktivistische Fremdsprachendidaktik: Lerner-und handlungsorientierter Fremdsprachenunterricht aus neuer Sicht. Tübingen: Francke, 1996, 253 S.

**İnternet mənbələri**

86. www.goethe.de
87. www.stud.uni-muenchen.de/-fariborz.dadkhah-jazi
88. www.forum-deutsch.de
89. www.iik-duesseldorf.de /service
90. www.ualberta.ca /-german /lehrer. htm